Və yaxud:

Hərcayi sözünə etibar olmaz,
Bihəyada namus olmaz, ar olmaz.
"Cəfa çəkmə, məndən sənə yar olmaz" –
Dönə-dönə dedi o dilbər mənə.

Zakirin dilini gözəlləşdirən xüsusiyyətlərdən biri də onun şifahi xalq yaradıcılığına dərindən bələd olmasıdır. Folklordakı müasirlik şairi ona bağlayan əsas tellərdəndir. O, xalq yaradıcılığının satirik ruhlu müxtəlif növlərindən zəngin bir mənbə kimi istifadə etmişdir. Folklordakı ictimai haqsızlığa qarşı çevrilmiş etiraz motivlərindən bacarıqla istifadə etmək də şairin yaradıcılığının gözəl məziyyətlərindəndir. Bu cəhətə də diqqət edilməlidir ki, Zakir satiralarındakı atalar sözü, məsəllərin özü də tipin seciyyəsini açır, mənanı dərinləşdirir.

Xalq dilinin zənginliklərinə dərindən bələd olan Zakir fikrini ifadə edərkən sözləri misra daxilində asanlıqla, məharətlə yerbəyer edir.

Onun qoşma və gəraylılarının ifadə tərzi də lirik məzmuna uyğun olaraq çox oynaq, axıcı, aydındır.

Zakir xalq şerinin qoşma, təcnis, gəraylı, bayatı formasında şerlər yazdığı kimi, klassik şeirin qəzəl, müxəmməs, müstəzad, tərcibənd, tərkibbənd formalarında da şeirlər yaratmışdır. O, klassik şərq ədəbiyyatına, elmə, əfsanələrə, dini rəvayətlərə, musiqiyə dərindən bələd sənətkardır. Məsələn, şairin müstəzadlarından bir bəndə diqqət edək:

Xacə, belə sövda, belə bazar ələ düşməz,
Fərş eylə dükanı.
Bu saqiyi-sadə, meyi-gülnar ələ düşməz
Novruz zamanı.
Həm mütribü ney, cəngü dəfü tar ələ düşməz,
Tut rast, nəvanı.
Dünyada həyatın nə qədər var ələ düşməz,
Sür eyşü-cavanı.
Çün dövr müxalifdi digərbar ələ düşməz,
Çaldır əşiranı.
Ver şüğlünü şəhnazə ki, zinhar ələ düşməz,
Çək övcə sədanı.
Dügah, segah iç meyi, təkrar ələ düşməz,
Kərm eylə həvanı.
Ahəngi-səfaboxş, xoşətvar ələ düşməz,
Çün, əhli-Aranı.
Axtarmaq ilə mövsimi-gülzar ələ düşməz
Azərbaycanı.
Hicazü Nişabura onu eyləmə həmta,
Həm mülki-İraqə.

Həmin bənddə "Rast", "Müxalif", "Əşiran", "Şahnaz", "Dügah", "Segah", "Aranı", "Azərbaycan", "Hicaz", "Nişaburi", "İraq" kimi muğam və muğam şöbələrinin adları çəkilir ki, şair onlardan həqiqi və məcazi mənalarda ustalıqla istifadə etmişdir.

Zakirin ədəbi-tənqidi mülahizələri, sənətə münasibəti haqqında müəyyən fikir söylərkən demək lazımdır ki, o, şeir, sənət məsələlərinə həsr olunmuş ayrıca əsər və məqalə yazmamışdır. Lakin onun şeirləri real varlığı əks etdirən güzgü timsalında olduğu kimi, sənətə münasibətdə də fikirləri aydındır.

7

Zakir sənətə necə baxmış, bədii ədəbiyyatın vəzifəsi haqqında nə kimi fikirlər və mülahizələr söyləmişdir? Başqa sözlə desək, satirik şair öz estetik fikirlərində cəmiyyətin inkişafı, xalqın tərəqqisi üçün hansı məsələləri qaldırmışdır?

Hər şeydən əvvəl, o Azərbaycan ədəbiyyatında satiranı qüvvətləndirmək üçün ardıcıl çalışmış, onun ədəbiyyatımızda müəyyən cərəyan halına düşməsində müstəsna xidmət göstərmişdir. Zakirin satiraları müstəqil ədəbi cərəyana çevrilən şerin vuran qəlbi və düşünən beyni olmuşdur, – desək, heç də səhv etmərik. O da diqqətəlayiqdir ki, həmin işdə M.F.Axundova müəllimliyi məhz Zakir etmişdir. Zakiri satira yazmağa təhrik edən amillər isə yaşadığı ictimai mühitdə baş verən hərc-mərclik, özbaşınalıq, qanunsuzluqlarla bağlıdır. Başqa sözlə desək, Zakir müasirlərinin gözünü açmaq, cəmiyyətə xeyir vermək üçün satiranı başqa ədəbi növlərdən ən münasibi hesab etmişdir.

Zakir bir satirik kimi şerin qarşısında ciddi tələblər qoyur, həm formanın, həm də məzmunun mükəmməl olmasını tələb edirdi. Görkəmli sənətkar əsrlər boyu çeynənmiş qafiyələrdən yapışan müasirlərini, hicrandan, vüsaldan, cənnətdən, cəhənnəmdən şeir quraşdıranları həqiqi, xalqa xidmət edən sənətkarlardan ayırır, tənqid atəşinə tuturdu. "Gözləyən kəs, gözəlim, həqqi deməz ay sənə" misrası ilə başlayan müstəzadında o, dolayı yolla köhnə, sxolastik şeirin insanı təsvir vasitələrinə gülürdü. O, canlı həyat çeşməsi olan, gözü nərgizə, dodaqları gül rəngli şəraba, saçı tər sünbülə oxşadan şairləri zərafət tərigi ilə ələ salır, şeirdə real, həyati əlamətlərə bəraət qazandırırdı. Əlbəttə, o özü də şərq şeirində davam edib gələn təşbihlərdən çox istifadə etmiş, köhnə ruhda gözəli vəsf edən qəzəllər də yazmışdır. Bu cəhət, yəni şairin ədəbi ənənədən tamamilə ayrıla bilməməsi təbii və qanunauyğun hal idi. Hətta XX əsrdə Sabir kimi nəhəng satirik sənətkarın özü də həmin ənənəyə sadiq qalmışdır. Lakin bununla belə o, qəzəl yazıb, gözəli vəsf etməyi artıq yeni dövrdə məqsəd kimi qəbul etməmiş sənətin, şerin vəzifəsinə tamam başqa gözlə baxmışdır.

Zakiri satira yazmağa təhrik edən səbəbləri araşdırarkən subyektiv münasibətlərin də müəyyən dərəcədə rol oynadığını yaddan çıxarmaq olmaz. Ədalətsizcəsinə ittiham edilən və öldürülən qardaşı uşaqları üstündə evi – obası dağılmış Zakir nə qədər incidilmişdir. Lakin məhrumiyyət, əzab və əziyyətlər satira yolunu tutan şairi ruhdan salıb küskünləşdirmir, ondakı mübariz ruhu daha da cilalayırdı.

Mübarizlik və barışmazlıq ruhu satirik sənətkarın öz təbiətində var idi. Bu ali hissi coşduran, əsasən yaşadığı cəmiyyətdəki hərc-mərclik, baştpozuqluq, qanunsuzluq idisə, subyektiv amillər də onu daha da kəskinləşdirirdi. O, həcvin, tənqidi şeirin, satiranın müasirləri tərəfindən qiymətləndirilmədiyini, həzm edilmədiyini; yağlanmış, piylənmişlərin mədələrini hələ çox xarab edəcəyini gözəl bilirdi.

Həcvü hədyan övqat keçirdin, Zakir,
Qorx o gündən olasan ta baəbəd zərbi-məsəl, –

deyən şair yaşadığı mühitdə sənətkara verilən qiymətə kinayə ilə gülürdü.

Öz fikirlərini həqiqətin dili ilə söyləmək işində şairin qabağına çox əngəllər çıxır, sözləri də tamam-kamal açıq deməyə ehtiyat edirdi. Göz gördüyündən qorxar – məsələnə münasib desək, o, mütləqiyyət üsul-idarəsinin cansıxıcı təbiətindən, çarın ikibaşlı siyasətindən istər Rusiyada və istərsə də ucqarlardakı qabaqcıl fikirli, həqiqəti açıq deyən ziyalıların təqib edilməsindən, qulluq göstərən xəfiyyə agentlərindən ehtiyat edirdi:

İstədim həcv edim bir özgə sayaq,
Amma yenə mənə oldu ehtiyat.

Bəs nə etməli? İctimai varlığı bütün eybləri ilə açıb göstərmək, həqiqəti sənət dili ilə söyləmək üçün şairin müxtəlif ədəbi yollar, vasitələr axtarmasının özü də diqqəti cəlb edən cəhətdir. Həqiqəti örtülü şəkildə, hadisə və əhvalatları başqa dövrə və yerə köçürmək yolu və ya təmsil, nağıl, rəvayət vasitəsilə söyləmək onun faydalandığı bədii üsullardan idi.

Satirik şair həyata, əxlaqa, insanlar arasındakı münasibətə fəal müdaxilə vasitəsi olan gülüşün, istehzanın islahedici qüvvəsinə inanırdı. O öz müsbət fikirlərinin həyata keçməsində istehzanı fəal bir vasitə kimi qiymətləndirirdi. Zakir zəhmətkeş kütlələrin arzularına uyğun iş görür, onun kədər və qəmini də, şadlığını da özününkü hesab edirdi. Zakir şeirə, sənətə də yüksək meyarla yanaşır, şairlik sənətini çox uca tuturdu.

Kamran Məmmədov

Tənqidi-satirik şeirlər

VİLAYƏTİN MƏĞŞUŞLUĞU HAQQINDA

Mirzə Fətəliyə

Xəbər alsan bu vilanın əhvalın, –
Bir özgədir keyfiyyəti-Qarabağ.
Həqdi, bundan əqdəm görübsən sən də,
Hanı o qaidə, o qanun səyaq?

Qüttaüttəriqin vüfuru vardır,
Yaylaqda, aranda qatar-qatardır,
Yenə soxa-soxdu, apar-apardır;
Bizim başımızda çatdadı çanaq.

Səfikürdü, Hacı Samlu, Kolanı,
Tutarlar, soyarlar dalda qalanı,
Viran olsun görüm Doyranbasanı,
Evdə yatan yoxdu, qarışıb papaq.

Zərgər, Dağarda aləm-aşikar
Bir ucdan oğurlar, bir ucdan satar;
Vay odur sahibi at başı tutar,
Yüz yerdən tökülür üstünə çomaq.

Qarabaldır xəlqi, xüsus Ərəblər,
Qarınca dəməyə necə dən çəkər,
İşdədir sübhədən ta ki, gecələr,
Döyürlər, kim gəlib eyləsə soraq.

Belə vilayəti dağıtsın tarı,
Ziyadə məğşuşdu Ərəs kənarı,
Xurda, Parababi, Qarğabazarı,
Maralyan, Horadiz, Nüzyar, Qoyucaq.

Hər obadan çıxır otuz, ya əlli,
Özü cələkəsən, adları bəlli;
Genə şorta-şortdu Adıgözəlli,
Min evdən artıqdır yığıntı qazaq.

Əgər xəbər alsan Molla Səfini,
Oğru, dürüst qarışdırıb kefini;
O, qələdə bicər ölü kəfəni,
Çöldə üç atını soyublar çılpaq.

Qarabağda nə day qaldı, nə dana,
Bu gün, sabah qaçar hərə bir yana;
Tənbih etmək ilə Xındırıstana,
Xub saldı nizamə ölkəni qoçaq.

Ədalətdə yoxdur bir kəsrü kəmi,
Mundan sonra vilayətin nə qəmi;
Əlbət, dağıdarmış külli-aləmi
Ağzından süd iyi gələn iki uşaq.

Birindən şikayət edəsən əgər,
Danışmağa qoymaz, sözünü kəsər,
Qardaş malı kimi ortadan bölər, –
Murovlar olublar oğruya ortaq.

Görsən tanımazsan Yarımsaqqalı,
Çıxıb əndazədən dövlətü malı;
Xandəmirov çaldı, çapdı mahalı,
O ki, tutub özün keçəl qurumsaq.

Gədə-güdə olub sahib-məsləhət,
Gündüz axşamadək danışır xəlvət.
İşlərimiz belə keçsə bir müddət,
Qədimilər olur tamam şil, axsaq.

Gündə bir gətirir zakoni-tazə,
Fikri budu xəlqi verə güdazə;
Bizdən də məhrəmdir biri knyazə,
Nəməhrəm, füzuli heyvərə, yarışaq.

Bilən yoxdur bu barədə niyyətin,
Bakı iradəsi görünür çətin;
Zən qəhbədir çəkən onun minnətin,
Tez ölsə övladır, dirilməz naçaq!

Əbəs yerə bizi verdi zəvalə,
Oğrun-oğrun bəlalərə həvalə;
O ki, olmalıydı oldu, səqqalə
Dəxi doğramasın soğan, sarımsaq.

Ömründə gəlməyib doğru dilinə,
Xaindi xiyşinə, qövmü elinə.
Əli Zülfüqarın vursun belinə,
Bəlkə ölə pis üzündən qurtulaq.

Həddən aşıb büxlü həsəd, şərarət,
Yoldaş yoldaşına eylər xəyanət,
Alimdə əməl yox, bəydə ədalət,
İşlərimiz olub saf gərdən-bucaq.

Üləmalar üz döndərib xudadən,
Usanmaz bir ləhzə cövrü cəfadən.
Başı əmmaməli seyyid-molladən
Taətdə övladır o qatmaqurşaq.

Həg bilir ki, beli şallı hacılar
Zəhrimar tək xəlqın ağzın acılar;
Düşəndə gözləməz ana, bacılar,
Bu əhldən sinədağəm, sinədağ.

Adın qoyub kərbəlayi, məşədi,
Neyləyim, peşələri yaman peşədi.
Çoxun gördüm ayaq üstə...
Belə millət olmaz, qoyun oturaq.

Övrətlər ərinə deyər latayil,
Beşinə, onuna həm olmaz qayil;
Qalmayıb arada bir şərmi-hayil,
Az qalıb gəzələr çöldə tumançaq.

Adət düşüb indi-bakirə qızlar
Motalçısın salıb otağə gizlər;
Anası dinəndə topuqlar, dizlər,
Deyər: iymanına...

Gərək bu aləmdən eyləmək həzər,
Öz yerində deyil çünki xeyrü şər.
Bihörmət olubdur pədərə pesər,
Yüzdə biri yaxşı olur ittifaq.

Özgə məqulədən danışaq bir az,
Deməsinlər kişi xamdır, annamaz;
Bir kəsə olmasa zəmanə dəmsaz,
Çox adamlar alır üstünə ayaq.

Həvadisi-dövran, gərdişi-fələk
Salmışdı binayə kəbki yepələk;
Tülək tərlan kimi, Qafil Həsən bək
Şığıyıb çənginə götürdü bayaq.

Şüai-afitab olanda izhar
Cəzə – şəbpərənin nə qüdrəti var?
Laçın seyidgahə qılanda guzar
İlim-ilim itər bayquş, yapalaq.

Var imiş söhbəti zəmani-mazi,
Ta inki tərəfeyn oldular razi,
On dörd ağac yolu cənabi-qazi
Beş-altı saatda getdi çaparaq.

Bir kəsin olmasa əqli-şüuri,
Əlbəttə, matəmə dönər süruri
Həzəratın özgə idi mənzuri,
Əlminnətü-lillah kim, oldu damaq.

Hər kimin ki, gülsə fələk yalına,
Baxmaz işin qabağına, dalına;
Bu övladın əmlakına, malına
Ləvənd oğlu xub olmuşdu dadanaq.

Bir müddət istədi qızın Xanın da,
Dolandı dövrində, pasibanında;
Məəttəl qalmışam, bunun yanında
Övrət almaq olub oyun-oyuncaq.

Şövhəri hər zənin yüz ola ədna,
Rəsmdir gözləyə neçə vəqt, əmma
Ərinin kəfəni saralmamış ta
Talib imiş, tez çataşdı...

Sən görgilən zən əhlinin havasın,
Məsnədnişin eylər çölün yavasın;
Qapsıyıblar yetimlərin obasın,
Ev sahibin qovar zor olsa qonaq.

Ərz edib xanıma Cinli bittəmam,
Bu xeyir iş tapmasa əgər sərəncam,
Gəlməzik qapına, verməzik salam –
Döyəsən özünü gər yerə taq-taq.

Bir kişi olmasa... möhkəm,
Meyl eləməz ona mütləqa həmdəm;
Nə düşüblər munun dalına bilməm,
Şamü səhər atar fındıqca tiyaq.

İddəası əfzun, çörəyi nayab,
Zülmü bəhri-Qülzum, səxası sərab;
Bir çakərə versə yarım şiş kəbab,
Dalınca buyurur yüz təklifi-şaq.

Rüsvalığın xasü amə bildirir,
Xəlqin zərü simin evə doldurur;
Hər övrətə dəysə dər-dəm öldürür
...zatülcənb ... yatalaq.

Kərbəla yolunda qatır oğrusu,
Saf əldən salıbdır məni, doğrusu;
Günbəgün enlənir budu, sağrısı,
Səksən yaşındadır, hamıdan qıvraq.

Yüz ondadır derlər, bu ömri təvil,
Hələ bundan sonra yaşar otuz il;
Mənim kimi yalınqatdan nə hasil?
Adam gərək ola pesərək, topçaq.

Özünün on yerdə vardır əmlaki,
Bir yana baxanda qohumdu saki;
Kökündən çıxarır, eyləməz baki,
Əgər ilişdirə bir yerə dırnaq.

Oğlunun hərəmi, qızı, pesəri
Ahu kimi baxar o yandan bəri.
Odur xərab edən bizim işləri,
Yetişməz bir yerə yüz il çalışsaq.

Bir-birindən mərğub, müzəyyən, göyçək,
Calislərin əqli çaşar görən tək;
Ya kişinin ağlı, qızılı gərək,
Ya övladı ola ayağı surçaq.

Axtarsan, yoxdur cibimdə dinar,
Qızım mələkülmovt, oğlum nahəmvar;
Qabaq dişi düşmüş bir keyvənim var,
Üzün görən adam eylər istifraq.

Cəm olub sərasər əqli seyrəklər,
Kimi odun qalar, kimi ətəklər;
Deputat nəqlindən ötəri bəglər
Gündə bir qapıya salırlar yığnaq.

Lənət gəlsin hərcayinin pirinə,
Yetmək olmaz fitnəsinə, sirinə;
Yalan satar təmam biri birinə,
Zahirdə ittifaq, batində nifaq.

Xanzadələr özün çəkib kənarə,
Deyir bizdən yoxdur sizlərə çarə;
Rəhim getdi, pənah pərvərdigarə,
Qaralmaz kibriya yandıran çıraq.

Bəybala halətin etsən istifsar,
Şükr olsun xudayə, yaxşı nəfi var;
Özü ucuz alıb bahayə satar,
Böyük Xana həm gərəkdi, həm yaraq.

Banəmək hacıdan danışaq əndək,
Seyr etdi bazarı Tiflisdən gəlcək;
Götdü, yerə çaldı, taciri tək-tək,
Pişləngə salıban qurdu badalaq.

Cəm ola küllühüm sərasər tüccar,
Alışda, verişdə ona kim çatar;
Adətdir quyruğun... qısar –
Hər yerdə ki, görsə köpəyi paraq.

Cəmşid bəyə yetir səlami-əfzun,
Knyaz Behbudova ərz etsin əknun
Nə rəvadır bisiyasət, bizakun
Viran ola nahəq bir qədim ocaq.

İki nəfər sadə cəvanü novrəs,
Heç birindən yoxdur rəncidə bir kəs;
Bir yanı Kolbasan, bir yanı Ərəs,
Kim görüb onları həmkari-qaçaq.

Böyüklük əmirə xoş səadətdir,
Və lakin rəvişi ədl, ədalətdir;
Yıxılana, qaidədir, adətdir,
Dayaq olan kəsə həqq olur dayaq.

Fəraqət oturub hər kəs bir işdə,
Nə yazda yarıdıq, nə də ki qışda;
Yarəb, neyləmişdik bu dağılmışda,
həram oldu bizə bir qarış torpaq?

Çəkilib köksümə dağlar, düğünlər,
Kafirə olmasın nəsib bu günlər!
Qınamasın məni könlübütünlər,
Fikrim dağınıqdır, xatirim övraq.

Məqsudimiz hasil olmadı bizim,
Yeksandı hicrində gecə-gündüzüm;
Bu bədbəxtin halətindən, əzizim,
Barı o viladə olgil göz-qulaq.

Gərçi vilayətdə çox idi əhval,
Müyəssər olmadı şərh edim əlhal;
Bir parasın yazıb elədim irsal,
Bu şərt ilə nə diş bilsin, nə dodaq.

Ziyarət eləyib şeyxül-islami,
Zakiri-həzindən yetir səlami.
Hacı Yusif, Molla Əhməd təmami,
Haçan ola bir də deyək, danışaq.

PİRANƏSƏRLİKDƏ ÇƏRXİ-KƏCRƏFTAR

Mirzə Fətəliyə

Piranəsərlikdə çərxi-kəcrəftar
Eylədi vətəndən dərbədər məni.
Neyləmişəm, bilməm, dövri-zalimə,
İncidir düşəndə bu qədər məni.

Qarabağ mülkündə mən bəxti siyah
Bir ağ gün görmədim, Allaha pənah,
Saldı bəlalərə bicürmü günah
Bir neçə müfsidü töxmi-xər məni.

Mən bir piri-tənha, zülmü bihesab,
Müşküldür gətirmək bu möhnətə tab.
Yaman deyə-deyə eylədi xarab
Hamıdan ziyadə üç nəfər məni.

Biri fasiq, facir, hədsiz zinakar,
Biri əyri-üyrü, xeyli nahəmvar,
Biri danışanda baş-ayaq atar,
Bir neçə it tutdu bixəbər məni.

Adəm idim, əbəs yerə zay oldum,
Vilayət içində rusivay oldum,
Oğrulara, quldurlara tay oldum,
Sanırdı xəlayiq peyğəmbər məni.

Dövlətlidən dövlət, kordan məzərrət,
Harda bihəya var zatına lənət!
Süxənçin sözilə etdi aqibət
Pəsərimdən cüda, bipədər məni.

Dövləti-alidə ağarıb saqqal,
Bir xilafım yoxdur, bu mən, o jurnal.
Bir zaman gördüm ki, yazıbdı filhal,
Qüttaüt-təriqə bərabər məni.

Yetmişində zurna çalmaq öyrənən
Gərək axirətdə çala, ... verən.
Az qalıb həştadı tamam edim mən,
Sən indi yazırsan əhli-şər məni.

Yetmək olmaz hərcayinin sirrinə,
Yalanı yeridir gərçək yerinə;
Lənət oxur... pirinə
Diyari-qürbətdə kim görər məni.

Kim ki, vilayətdə simü zəri var,
Yüz adam öldürə, həbsdən çıxar;
Yegənsiz danışmaq nə yanə çatar,
Bihörmət eylədi simü zər məni.

Dərdbilməzə dərdi-dili açınca,
Ruzigarın cəfasından qaçınca,
Namərd körpüsündən rahat keçincə,
Razıyam apara o sellər məni.

Kişi yoxdu, baxma çula-çuxaya,
Adam gərək dağa-daşa toxuya;
"Getmə, getmə" – deyib qoydu yuxuya,
Axırda itirdi Yekəpər məni.

Dalınca deyiləm bir şüğlü karın,
Bilmənəm dövrünü leylü nəharın;
Həvəsi-vüsalın, zövqi-didarın
Qoymaz yuxu yatam ta səhər məni.

Rahi-müsibətdə keçmişəm candan,
Müxənnəsdir qorxan bir qaşıq qandan;
Ehtiyatım yoxdur paşadan, xandan,
Analar doğubdur şiri-nər məni.

Olmuşam Bakıda sakin, fərağət,
Zövqi-təmaşası misali-cənnət.
Ziyadə dərdi-sər dəxi nə hacət,
Fəramuş eyləmə, müxtəsər, məni.

GÖZÜM YOLDA QALDI KÖNÜL İNTİZAR

Mirzə Fətəliyə

Gözüm yolda qaldı, könül intizar,
Gəlmədi cavabi-namələr səndən.
Bir aydan artıqdır gedib uşaqlar,
Yetişmədi bizə bir xəbər səndən.

Aşina, müsahib, yarü həmsayə
Lazımdır yetişə gövrə, həraya;
Kitabətin dəyər mülki-dünyayə,
Nə hacət istəmək simü zər səndən?

Tək yaradıb səni vahidi-yekta,
Əxlaqına, ətvarına mərhəba"
Neyləmisən Molla Səfi, Bəybaba
Məmnundu, əzizim, bu qədər səndən?

O vilanın yoxdu bu yer tək pisi,
Təqəllübü, hərzəkarı, xəbisi;
Yaxşı gördüm tamam əhli-Tiflisi,
Razıyam nəhayət biştər səndən.

Olan dəmdə mənə mənzil Şadno
Hər tərəfə eylər idim təkü do.
İvano-bəy, Kolyubakin, İliko
Çalışırdı, əlhəq, bərabər səndən.

Həsən bəyə söylə əmri-məlumi,
"Qəziyyə məlumdur deyəndə rumi".
Sərəfraz eylərsən yüz bəxti şumi,
Zahir olsa əgər bu hünər səndən.

Tutub damənini sən tək əmirin,
Təvəqqöün eylər iki əsirin;
Qarabağ mülkündə bir mərdi-pirin
Təmənnası budur, taci-sər, səndən!

Qoyma ki, qürbətdə gedələr zayə,
Saye salmaq təqazadır hümayə;
Laçın balasıdı gəmiş sonaye,
Seyd etmək olardan, balü pər səndən.

Salıbdır bəlaya dəbənganali,
Dağılıb əmlakı, dövlətü mali;
Sakit eyləməyə bu qilü qali
İstər o xoştəbi-süxənvər səndən.

Tutuşub mənimlə çərxi-bədəfal,
İt... girsin ha belə iqbal;
Bizim üstümüzdə, ey nikuxisal,
Eşitdim incinib Yekəpər səndən.

Baş verən zamanda bu əmri-əbəs,
Gərək ona sən deyəydin: – ey tərəs,
Sən bir ağacsan ki,ömründə heç kəs
Nə sayə görübdür, nə səmər səndən.

Çoxların qılıbsan çörəyə möhtac
Axtarır, tapılmaz dərdinə əlac;
Fironü Hamanü Zöhhakü Həccac
Ola bilməz ola sitəmkar səndən.

Bidətin yandırıb qövmü əshabi,
Müşküldü gətirmək bu zülmə tabi,
Düşüb Cəbrəilli, Maralyan, Babi,
Horadiz, Qoyucaq dərbədər səndən.

Zülmü sitəminlə aləm dolubdur,
Əhli beytin rəngi-ruyi solubdur,
Neçə rövşən xanimanlar olubdur.
Şəbi yelda kimi tirətər səndən?

Böyük oğlun gəzər payi-piyadə
Şol biri də tələf oldu aradə;
Xah gəda, xah büzürgzadə,
O kimdi çəkməyə yüz zərər səndən?

Sikkə olmaz övladının cibində;
Rizgləri yırtıq çuxal dibində
Can verdi madərin özgə evində,
Nə düxtər yarıyıb, nə pesər səndən.

Ömri-təvilinə budur ki, dəlil,
İstəməz üzünü görə Əzrail;
Bundan sonra hələ yaşarsan yüz il,
Vəchi budur, əcəl yan gəzər səndən.

Üləmayə dersən föhşü latayil,
Təriqi-islama deyilsən qayil;
Bu hal ilə yenə çox əqli zayil
Gəlib eşiyinə zad istər səndən.

Təsəllütün yetsə şeyxül-islamə,
Anı bizdən betər salırsan damə;
Əbəs yerə düşmə xəyali-xamə,
Nifrət eylər, billah, kim görər, səndən.

Mən səni tanırdım, işlərin qandı,
Yüz deyələr, elə haman-hamandı;
Elə bilsin padişahi-zamandı;
Hər kim iraq ola, müxtəsər, səndən.

Təqəllübdə, məllüqdə ustadsan,
Doğru sözün yoxdu, gizbə mötadsan;
Qatili-imamsan, İbni-Ziyadsan,
Lazımdır eyləmək əlhəzər səndən.

Vəsfi-sifatından danışdım xeyli,
Eşitsin hər kimin var isə meyli;
Elə yalqız Zakir deyil gileyli,
Azürdədir aləm sərasər səndən.

NƏ XABİ-QƏFLƏTDİ DİVANƏ KÖNÜL

Mirzə Fətəliyə

Nə xabi-qəflətdi, divanə könül,
Aç gözünü, süni-xudayə bir bax!
Sənə ki, qalmayıb ğəmi aləmin,
Seyri-bağə, zövqü səfayə bir bax!

Qıl tamaşa nov ərusi-baharə,
Qənimətdi beş gün ömri-dübarə;
Səhni-çəmənlərdə qümri, həzarə
Nə xoş verib səda – sədayə, bir bax!

Gərdişi-dövranın, ey xanəxərab,
Aparır möhnətin gərdişi-şərab;
İçməsən də içmə özün meyi-nab,
Eyşü nuşi-bayü gədayə bir bax!

Yasəmənin ətri çöküb jaləyə,
Gəlir Gülüstandan buyi-ğaliyə;
Gahi bənövşəyə, gahi laləyə,
Gahi də nərgisi-şəhlayə bir bax!

Sərvü sənubərin afəti-xəzan
Soyub libasını qoymuşdu üryan;
Gəlib tərəhhümə sərvəri-cahan,
Verdiyi xələti-zibayə bir bax!

Əgərçi xəstəsən, bir dur ayağə,
Ahəstə-ahəstə güzər qıl bağə;
Qəh-qəhi-minayə, rəqsi-üşşaqə,
Cəh-cəhi-bülbüli-şeydayə bir bax!

Seyrə çıxıb dəstə-dəstə gözəllər,
Çiçək dərib tər buxağə düzəllər,
Qaqqıldaşa-qaqqıldaşa gəzəllər,
Canlar alan səvtü nəvayə bir bax!

Şəqayiq, qərənfil, süsən, nəstərən
Zəbani-hal ilə oxur müstəhsən;
Həvayi-kuhsar, səfayi-çəmən
Tən edər cənnətül-məvayə, bir bax!

Necə oldu Cəmşid, Firidun, Kavus,
Söhrabi-namvər, Fəramərzü Tus,
Əsasi-İskəndər, gənci-Dəqyanus
Tamam getdi badi-fənayə, bir bax!

Bu dari-dünyanın yox etimadı,
Sənin də rehlətin bu gün fərdadı;
Sal yadına nəqli-Şirin-Fərhadı,
Sərgüşəti-Məcnun-Leylayə bir bax!

Mənim tək deyilsən, əzizim, sənin
Kür kənarı, yol üstüdür məskənin;
Ləzzətini apar gəlib-gedənin,
Nazənini-fərdi-əlayə bir bax!

Hallavarın bu səmtinin gözəli,
Bazar günü gəlisayə çox gəli;
Laçın tumaqəli, tərlan cilvəli,
Səri tər cıqqalı sonayə bir bax!

Duyuq düşsə əgər vermәzlər rüxsət,
Unutma gah-gah tapanda fürsət
Molla Əhmədi də Axunddan xəlvət,
Al yanına, mələksimayə bir bax!

Əracif kövtüku eşitmişəm mən,
Bilәm doğrusunu, olmadı gələn;
Deyirlər hamamda bir fahişə zən
Biədəb söz deyib Mollayə, bir bax!

Fisqü ficur həddən aşıb Şişədə,
Erkəyi, dişisi yaman peşədə.
Mənəm qalan həmin bu əndişədə,
Zəmanə dolanıb, qovğayə bir bax!

Sürahi solunda, badə sağında
Məzə qabağında, mey dodağında,
Çeşmə kənarında, çay qırağında
Əmmameyiseyyid, mollayə bir bax!

Vaiz bizə söylər şəri-Müstəfa;
Həramə mürtəkib olmayın əsla!
Özü lüm-lüm udur batində, əmma
Zahirdə dediyi mənayə bir bax!

Kimdi baxan peyğəmbərə, imamə,
Bu dağılmış düşən deyil nizamə!
Orucluqda şürbi-meyi-gülfamə,
Mahi-məhərrəmdə zinayə bir bax!

Səhra mərdümünü şəhr əhli görcək,
Yalvarıb, yapışıb oturdur çömmək;
Beş arşında sürüşdürür üç çərək,
Tacirə seyr eylə, sövdayə bir bax!

Baqqal qoyar tərəziyə imanın,
Əsəl qiymətinə satar ayranın,
Qudurmuş it kimi tutar dörd yanın,
Deyən yoxdur Ali-Əbayə bir bax!

Pinəçilər bafta taxar boynuna,
İmperial tökər vərəq oynuna,
Qovurmaçı saat qoyub qoynuna,
İddiayi-əla, ədnayə bir bax!

Həramilər kimi yol üstə yatar,
Tamojnada növkər olub mal tutar,
Dünbək çalar, şərab içər... atar,
Feli-bəyzadeyi-tərsayə bir bax!

Dolanır bazarı darğa, kvartal,
Döyülür sifətlər, yolunur saqqal;
Gecə get cibinə beş-on manat sal,
Gündüz gəlib nırxi-bəhayə bir bax!

Həddən aşıb bu viladə şərarət,
Hər kim hər iş görə – puluna minnət.
Mu qədəri yoxdur ədlü ədalət,
Və lakin şöhrəti-bicayə bir bax!

Böyüklərin işi deyil deməli,
Dənidən betərdir, feli əməli;
Beylə görməmişdik bundan əzəli,
İndi karü bari-rüsvayə bir bax!

Xanzadələr şişə taxır rəyəti,
Özlərinin deyil qızı, övrəti;
Orda..., harda düşsə fürsəti,
Kiçiyi seyr elə, ağayə bir bax!

Palajenya nəqli ta olub möhkəm,
Gərək bəy azalda zülmün dəmadəm;
Dəxi də artırır bu əhli-sitəm
...zurnayə bir bax!

Piranəsərlikdə mən oldum rüsva,
Düzəlmədi işlər, cana yetdim ta;
Gör nə oyun tutdu, əzizim Mirza,
Zakirə, təqdiri-qəzayə bir bax!

SƏNİ ALƏMDƏ, EY ARAMİ-CAN, HƏR KİM ZƏLİL İSTƏR

İsmayıl bəy Qutqaşınlıya

Səni aləmdə, ey arami-can, hər kim zəlil istər
Anı zillətdə bu qəmdar könlüm ayü il istər.

Şərabi-cami-bəzmi-iltifatın nuş edən bir gəz
Nə Kövsər arizu eylər, nə abi-Səlsəbil istər.

Deyil asan qürbi-padişahi-əsrə yol bulmaq,
Sifati-nikü ətvari-xoşü xülqi-cəmil istər.

Məni qovğayi-şəhri-bəhri-Baku təlxkam etməz,
Nədən kim, aşiqi-şeyda olan kəs qalü qil istər.

Kəmalə yetmək olmaz, bisəyahət, haliya könlüm.
Təmaşayi-biladi-Misrü seyri-rudi-Nil istər.

Mənə derlər ki, sən "peyğəmbərəm" derdin, nə işdir bu?
Deməzlər mərdi-mömin möhnətə əcri-cəzil istər.

Cəfayi-dəhrdən azürdəlik eyni həmaqətdir,
Bəlanı xoş tutar İdrisü Əyyubü Xəlil istər.

Mənəm varis bu gün Yaqubə, fərzəndi-əzizimdən
Gələr buyi-fərəh gəh-gəh, əgər rəbbi-cəlil istər.

Məni-pirü süxəndanın nədir cürmü, xudavəndə!
Üqubətdə o bişərmü cəfakarü mühil istər.

Tapılmaz böylə bir bədhal zalim hiç millətdə,
Yığılsa bir yerə Əndi, Qumuq, Axtı, Rotil istər.

Məsəldir ki, xəta bir beylə adəmdən iraq olmaz,
Bu bir əmri-müşəxxəsdir, nə vəhyi-Cəbrəil istər.

Qarabağ içrə ağ gün görmədim, mən tirəbəxt oldum,
Anınçın xatirim ol qövmi-birəhmi qətil istər.

Şəriri-biqərəz olmaq təqazayi-təbiətdir,
İnanma bir kəsi xoşnud aləmdə bəxil istər.

Bizim mədümləri, zinhar, pənd ovsari bənd etməz,
Oların, naqeyi-qalmıq kimi, burnu qəzil istər.

Edər yadi-gülüstani-vətən ğürbətdə dil mürğü,
Qəfəs qeydindən azad olmağa daim dəlil istər.

Nəhayət şərhi-hal etmək yetən namordə müşküldür,
Sənin tək bir əmiri-pakzadü baədil istər.

Təvəkkül əhliyəm mütləq, yapışmam xarü xaşakə,
Füsürdə cismim olsun saliha qərq abi-seyl istər.

Səxavət, ya vəsatət zat iləndir, mərdi-biəslə,
Muradı hasil olmaz yüz düşə bir kəs dəxil istər.

Nihali-məqsədi sərsəbz olub əflakə yetməzmi
O kəslər ki, rizayi-xatiri-piri-əlil istər?

Süxon meydanı, qibləm, təng idi, söz müxtəsər keçdi,
Sənin övsafını nəzm etməyə bəhri-təvil istər.

Yeton tək şəhrə hacı bəndəyə bir təxt bəxş etdi,
Bilir ki, bazdəsti olsa hər qanda tüfil istər.

O yerdən azimi-Tiflis çoxdur, yaz ki, Mirzayə
Filani, bir döpü pərvərdə səndən zəncəbil istər.

Əgərçi var Dağıstani kürkü Zakirin, əmma
Cənabından dəxi bir sarı kürki-Ərdəbil istər.

Deyildi sabiqən əhli-təvəqqe, şimdi Bakudə
Əlaci-kəsrəti-sərma üçün çizi-qəlil istər.

Dağılmış xanimanı, incimin əxzü sualından,
Tikəndə quş yuva çör-çöp yığıban zir-zibil istər.

BU ƏHLDƏN MEHRİBANLIQ GÖRMƏDİM

İsmayıl bəy Qutqaşınlıya

Bu əhldən mehribanlıq görəmdim,
Məgər bizə ola o yandan mədəd.
Qutqaşın tərlanı, Şəki şəhbazı,
Sakini-biladi-Şirvandan mədəd.

Qarabağ əşxası yeksər yağıdır,
Övvəldən axıra zülm ocağıdır;
Bir gecədə canavarlar dağıdır
Olmasa kəlləyə çobandan mədəd.

Nücəbalar qədrin bilir nücəba,
Əxlaqına, ətvarına mərhəba!
Daş-daş üstə durmaz aləmdə əsla -
Dəyməsə insana insandan mədəd.

Fəzayi-mönətdə qalmışam möhtac,
Uşaqlarım olub vətəndən ixrac;
Təbibi-haziqsən, eylə bir əlac,
Yoxdur mənə özgə dərmandan mədəd.

Yığılsa bir yerə yüz alinəsəb,
Danışığın mənat, sözün müntəxəb;
Aləm bilir bivasitə, bisəbəb
Müşküldür arizə divandan mədəd.

Həzrəti İsmail olsun dəlilin,
Yetiş imdadına piri-əlilin;
Necə fərzəndinə ol dəm Xəlilin
Cəbrail gətirdi qurbandan mədəd.

Əsasi-qiyamət olanda bərpa,
Kimdir ğövrə yetən ondan masiva;
Sərdəftəri-rəsul, Xətmi-Ənbiya
Tənzili-ayeyi-Qurandan mədəd.

Çərxi-fələk salmış məni bu halə,
Malü mülküm tamam getdi zəvalə;
Qaidədir şərməndeyi-əyalə
Yetişir sahibi-ehsandan mədəd.

Gəlməyib mütləqa ruyi-zəminə
Tab edən mənim tək qəza qəminə;
Zövrəqi-əltafın dili-həzinə,
Gümanım var, verə tufandan mədəd.

Namərd ətəyindən tutasan yüz il,
Etibar yoxdur həll ola müşkül;
Olsa, olacaqdır dərdinə, ey dil!
Xələfi-Nəsrullah Sultandan mədəd.

Zakirəm həmişə sən tək sərvərə,
Xoş göstərsin səni xaliq nəzərə;
Eyb etməz alişan ümeralərə
İstəmək duayi-pirandan mədəd

SƏNDƏN SONRA, EY TAGİ-SƏR BAŞIMA

Mixail Petroviç Kolyubakinə

Səndən sonra, ey taci-sər, başıma
Gərdişi-zəmanə nələr gətirdi.
İki bimürüvvət ittifaq edib,
Vilayətə yüz şurü şər gətirdi.

Qaçaqlıq binası edəntək Behbud,
Pişnihad etdim öz ərzimi zud;
Tərəfgirlik oldu axırda, nə sud, –
Mənim doğruluğum zərər gətirdi.

Yüz ilin ocağın bicürmü günah
Eylədilər viran, vallahü billah!
Bu talei-zəbun, bu bəxti-siyah
Daim mənə xovfü xətər gətirdi.

Həştadə yetmişdir sinnü salımız,
Bu dövlətdə ağarıbdı yalımız,
Getdi dövlətimiz, mülkü malımız,
Nəxli-təmənnamız kədər gətirdi.

Nücəba hörmətin gözlər nücəba,
Nasəza yaraşmaz böyüyə əsla;
Pədərindən deyil yəqin bil, amma
Hər kimsə ki, nami-pədər gətirdi.

Ədalət var idi bundan əzələ,
Yaman yerə yetib iş gələ-gələ;
Dirəxti-bəxtimiz, əfsus ki, belə
Varə-varə acı səmər gətirdi.

O kəslər ki, eyləmişdi xəyanət,
Əyləşib evində rahət, fərağət;
Mənim uşaqlarım bivəchü cəhət,
Gözlərindən xuni-cigər gətirdi.

Bundan əqdəm kimin olsa üsyanı,
Derlərdi "vayenni sud" kəssin anı;
Bilməzəm necoldu, o zakon hanı?
Naçalnik zakuni-digər gətirdi.

Məzərrəti əfzun, ədaləti yox,
Görünməyib hərgiz belə...
Özü gəlməyinə məmnun idik çox,
Dalısınca keçəl Pəzər gətirdi.

Tutubdu aləmi zülmi-bihesab,
Müşküldür gətirmək bu möhnətə tab.
Köynük, Biləciyi etmişdi xərab,
Bizim kəndə ondan betər gətirdi.

Aşura günü tək bir səhər çağı
Yığdı ərradəyə övrət-uşağı,
Şamə rəvan etdi bimürvət yağı,
Görən yaxa yırtıb; həzər gətirdi.

Bir adam ki, yerə qoya əllərin
Bilmək olmaz onun fitnə, fellərin;
Biabiru etdi Tiflis ellərin
O ayin ki, bu töxmi-xər gətirdi.

Əcəb əyyam imiş əyyami-sələf,
Gərək o günlərdə olaydıq tələf;
Çəyirtkə bir tərəf, dolu bir tərəf,
Şum qədəmi gəldi, şərər gətirdi.

İki namərd uyub biri-birinə
Yetmək olmaz heç birinin sirrinə.
Lənət gəlsin... verənin pirinə,
Bid binanı... gətirdi.

Adamda insafü mürüvvət gərək,
Quyruğun kəsməklə tula olmaz köpək.
İlan əti yeyib yerikdə bişək
O madər ki, belə pesər gətirdi.

Neçə gün söyləndi bu yerdə əhval,
Qubernator olur ol nikuxisal;
Malımız, mülkümüz müjdədir əlhal,
Hər kim gəlib doğru xəbər gətirdi.

Ey sahibi-şövkət, ey mədəni-şan,
Dadxahəm sizə, aman, ələman!
Bu zülmü insana eyləməz insan,
Məgər ki, qəzavü qədər gətirdi.

ÇIXMADI, QURTULAQ DƏRDÜ BƏLADAN

Çıxmadı, qurtulaq dərdü-bəladan,
Gündə bir zakuni görən canımız!
Hər ayın başında bir yol dəgşilən
Adəti qanuni görən canımız!

Təfavüt qalmadı gədayə, bəyə,
Barkeşlər indi keçib yedəyə;
Qənaət eyləsin bezə, qədəyə
Cameyi-gülguni görən canımız!

Bundan isə yeydir diyari-qürbət,
Al başını, dur get əlbət, səd əlbət;
Yalavac əyaldan çoksin xəcalət
Bəzəkli xatuni göron canımız!

Yazü qış həmişə sevgili canan
Geyərdi əyninə libasi-olvan;
Olmasınmı indi sərv tək üryan,
Qamәti-mövzuni görən canımız!

Fətulə-fatulə səfheyi-rudə,
Gah tərfi-zənəxdə, gahi əbrudə,
Pərişan olmazmı, ğübaraludo
Müəttər gcynusi görən canımız!

Mübarəkdir bu dünyanın nizami,
Nəhayət müşküldü öyrətmək xami;
Yad edib ağlayın keçən əyyami,
Müəttər geysuni görən canımız!

Ac qaldıqca rəxtü xabı satacaq,
Gələ-gələ quru yerdə yatacaq,
Uzaqdan sikkəyə güllə atacaq,
Min tümən altuni görən canımız!

Salaq başımıza nə növi daşı,
Harda biz görmüşük belə pərxaşı?
Rəiyyətlə boyunduruq yoldaşı –
Çakəri-dilxuni görən canımız!

Nə gündə yaradıb xudavənd bizi,
Bir yana apara bilmədik izi.
Gahi Avanesi, gahi Sərkizi,
Gahi də Semyoni görən canımız!

Bəy ikən adımız oldu mülkədar,
Daxi mundan belə bizimçün nə var?
Olmazmı mükəddər, sahibixtiyar
Əvəki, Ərtuni görən canımız!

Satarıq, sovarıq olub qalanı,
Həqq bilir sözümün yoxdu yalanı,
Salsın alta indi öküz palanı,
Balışi-pərquni görən canımız!

Sərxeyl ikən yeksər qaldıq ayaqda,
İşlərimiz keçir yaman sayaqda,
Nə tirəbəxt olduq bu Qarabağda,
Talei-meymuni görən canımız!

Tağar-tağar arpa, buğda əkilən,
Biçilib, döyülüb, dama tökülən;
Qan axıt gözündən, ipək çəkilən
Xali tərazuni görən canımız!

Bu tövr ilə getmək müşküldür yola,
Nə sağa mümkündür qaçmaq, nə sola;
Gərək indən belə digərgun ola
Kari-digərguni görən canımız!

Aaparırlar qaravula, keşiyə,
Qəht olub bir deşik, girək deşiyə;
Buriya döşəsin evə, eşiyə
Xaliyi-bahuni görən canımız!

Bu zülmü insana eyləməz insan,
Saf cana yetişdik aman, əlaman!
Bir neçə laməzhəb, adı müsəlman
Mürtədü məluni görən canımız!

Gəldi, getdi, heyif, əmiri-nəcib,
Feyzi-nəzirindən olduq binəsib;
Necə qəbul eylər naəhl təbib,
Haziq Ərəstuni görən canımız!

Lazımdır ki, edək belə qonağa
Ellik ilə malü mülkü sadağa;
Özgə əmir ilə tutmaz əlaqə
Ta doyunca muni görən canımız!

Ədalətli, mürüvvətli canişin, –
Təqyəmiz onadır küllühüm həmin,
Sənaxandır ona ta ruzi-pəsin,
Xəlqə rəhnümuni görən canımız!

Məlcəi-füqarə, məməni-zəlil,
Hamiyi-züəfa, mürşüdi-dəlil,
Kərəmi abi-Kür, atası Edil,
Səxası Ceyhuni görən canımız!

ZƏMANƏNİN TƏNQİDİ

Ey xudavəndi-cəhan, aləmi əsrari-xəfi,
Bu nə kavuşü, nə qovğavü, nə cəngü, nə cədəl?

Xəlqi-aləm həmə bədkarü dilazarü bəxil,
Nəsli-adəm həmə bədtinətü pürməkrü dəqəl.

Əsr bir əsrdi kim, gürbə verir şirə təkan,
Dövr bir dövrdü kim, gürgə edər həmlə həmal.

Eybinə yox mütonnəbeh olan adəm, hərgiz.
Çarə oldur ki, bu əhvalə yenə gəzdirəm əl.

Münşii-təbə səzavari-süxən kimdi, – dedim,
Söylədi: məzlomeyi-mollanı yazmaq əfzəl.

Ruzi şəb mədrəsədə qeybətü böhtanü duruğ,
Müttəsil məhkəmədə söhbətü əşarü qəzəl.

Üləma talibi-arayişi-ətfalü əyal,
Füqəha rağibi-zinü nəmədü əsbü kütəl.

Azışıb gör necə ol jindəqəba mollalər,
Bəhri-puşək zonə imdi bəyənməz məxməl.

Ton edər ətləsi-gərdunə sərapərdələri,
Buriya görməz idi xanələri mündan əzəl.

Cəm edib hər biri bir müft xəvaninlər tək
Bir kapal at, içi leyk çoxu sarı təpəl.

Ol ki, doşabə məkəsvar urardı özünü,
Haliya tolx edər ovqatimi, ver şəhdi-əsəl.

Al, yaşıl, zərdü siyəh, düxtəri-diba mövcud,
Yoxdu bir kəsrü kəmi heç birinin qeyr əz əməl.

Alimi biəmələ pəndü nəsihət netsin.
Muryano yesə pirahəni tutmaz seyqəl.

Xah bəd, xah niku, xaliqi bilsin, bizə nə,
Biçər öz əkdiyini hər kişi həngami-məhəl.

Yol gedər molla qəmi kari-vilayət hələ,
Neçə ildən bəri bir növ, olubdur müxtəl.

Gələ gər həzrəti-Sahib deyə yüz vəzü dəlil,
Yox gümanım ki, qəbul eyləyə işlər feysəl.

Aparıb oğru payızdan bəri Xızıstandan
On öküz, doqquz inək, yeddi camış, dörd beş kəl.

Mən ki, peyğəmbəri-namürsəliyəm bu xəlqin,
Şümr tək qanın içər gəlsə Nəbiyyi-Mürsəl.

Rosmdi bundan əzəl – düzd gəzərdi gizlin,
İndi mal sahibinə der ki: "gedək, Murova, gəl!".

Tutasan otuz iki at başı iyirmi dörddə,
Göstorir arizinə ... zasdatəl.

Nəçidi məmləkəti çala, çapa dana-doluq,
Əhli-divan ona hərgah desə kim, dincəl.

Qarabağdan, tarı şahiddi, bu il Zərdabə
Sağ başın tükü sanı at-mal aparıbdı keçəl.

Özgə yer mərdümü haşa cəzə bilsin kolda[1],
Aləm-aşkar özümüzdəndi təmamən əngəl.

Çarpa oğrusunun səhldi əncami yenə,
Mərdümi-şəhr kimi görsə deyər: "bircə çömel".

Elə ki, bənd elədi ..., Allaha pənah,
And içər hər kəsə yüz gəz ələ alıb heykəl.

Şöhreyi-şəhr idi taətdə Əbazər, Miqdad,
Qıl nəzər Şişə bazarında nədir gör ki, əməl.

Sürçüdür arşını fərzəndi-nəhan əhyana,
Müştəri görsə açar başına yüz qalü məqəl.

Nə bir anlar şərəfi-and təvafi-Kəbə,
Həmə kəcbəhs, dilazar, xotadidə, dəğəl.

[1] Xındırıstana işarədir.

Küllühüm zahiri xoş, batini bəd, qəlbi qara,
Şalı əlvan, donu rəngin, saçı, saqqalı gözəl.

Yaza bilməz oların eybini ta ruzi-əbəd,
Abi-Ceyhun – mürəkkəb, qələm olsa – cəngəl.

Yetdi növbət ümərayə, işim oldu müşkül,
Ehtiyat eyləməsəm müşkülü eylərdim həll.

Tutmayıb pəndi-xirədmənd, məni damə salır,
Bu kəsilmiş dilə, hərçənd, deyirlər dincəl.

Neylәsin dil, necə qan ağlamasın gözlərimiz,
Hakimi-şahə ola hər həftədə bir müstəmәl.

Nə gəlir durquza, nə öldürüb azad qıla,
Yetimi, bil, qoyacaq halı pərişan, mətəl.

Yazıq ol kim, düşə kari dəri-mücməlkarə,
Nə qədər var həyatın, dcyəcəkdir: "Get, gəl".

Necə kim, verməmisən seyri-qəmərdən razi,
Eylə ki, aldığını aldı zühəl tək tənbəl.

Bazigərlikdə əcayib yədi-beyzaləri var,
Etməmiş mat, iki tir vurar əl-ba-əl.

Gəzəsən aləmi haşa tapıla bunlar tək,
Özləri bisərü pa, işləri cümlə təl-təl.

Ey şəhənşahi-ümurati-cahan, eylə zühur,
Ənqəribdir yetişə şişeyi-namusə xəlәl.

Bəs ki, kəc başını tutmuş fələki-süflənəvaz,
Qorxum oldur, sata əlayə təhəkküm-əsfəl.

Belə ki, rövnəqi-nəzmi pozulubdur xəlqin,
Sağ əli başıma, xub getdi Camal, Adıgözəl.

Dərd çox, bar giran, qövrə yetən yox, ya rəb,
Bizlərə səbr əta eylə və yainki əcəl

Həcvü hədyan ilə övqat keçirdin, Zakir,
Qorx o gündən olasan ta bəəbəd zərbi-məsəl.

QARABAĞ QAZİSİ

Eyləyibdir yenə, mən hiç nə bilməm, qazi,
Xəlq arasında olubdur belə mülzəm qazi.

Yaradıbdır onu ol xaliqi-əşya bieyb,
Dari-dünyada bu surət tapılır kəm qazi.

Qazi hər yerdə olur bimәzəvü bədhərəkət,
Şükr-lillah ki, bu həm bamәzədir, həm qazi.

Qələmi tiği-düsəpdir, özü mərdi-rəhi-din,
Daima Şeyxi ilə cəngə müsəlmməm qazi.

Səri-ədadə fırıldar çomağı bərq-asa,
Necə ki, mərəkədə şeşpəri-Rüstəm, qazi.

Nari-qəhri əridir mum kimi fuladi,
Kureyi-nəfsi-dərunə verə gər dəm qazi.

Kimdi yanındı onun Əliquluyü Əbdürəhim,
Kuhi-Əlbürsü yıxar çün toxunan dəm qazi.

Dəhrdə şişə olur səngi-cəfadən eymən,
Ola bir şəhrdə bu tərzlə möhkəm qazi.

Mədəni-cudü kərəm, caygəhi-əmnü əman,
Ədldə Nuşirəvan, bəzldə hatəm qazi.

Füqəra dövri-sərayində besani-halə,
Nəqdi-ehsani Qarabağə çü şəbnəm qazi.

Qələt etdim, bu sözün yoxdu vüquı hərgiz,
Qorxuram cəmdəyimə tuf deyə aləm,qazi!

Şişənin simü zərin doldurasan xanəsinə,
Şişəvəş dişrəyə verməz yenə bir nəm qazi.

Qazi oldur ki, qala əhli-vilayət qəminə,
Nə ki, aləm həmə qəmdar ola, xürrəm qazi.

Onda mən gördüyümü görmüşəm, indən böylə
Etməzəm taət ona gər ola qiblom qazi.

Haradan goldi bular, eylədilər xəlqi xərab,
Biri der müctəhidəm, biri müsəlman qazi.

Atlanıb biri çapar Təkləyə day, danə üçün,
Biri də şamü səhər talibi-dirhəm qazi.

Yay gedər Fingiyə zövq etməyə, qış Qaynağa,
Bir deməz hiç gəlir mahi-məhərrəm qazi.

Qazi lazımdı dyə məhkəmədə şəri-nəbi,
Nə ki, gəşt edə cahanı minib ədhəm qazi.

Təbrizin ağı ucuz, miri-vilayət qafil,
Hər əlif-bey deyəni qıldı müəmməm qazi.

Dəxi divani-rəiyyət belə getsə qalmaz,
Bu Qarabağ edər cümlə mükərrəm qazi.

Xişü əqvamına mu qədri tərəhhüm qılmaz,
Dəmbədəm xolqə oxur sileyi-ərhəm qazi.

Sabiqən beylə deyildi, olub indi birəhm,
Həzrəti-xanə olandan bəri məhrom qazi.

Çox adam var idi, nəzm ilə əda eyləməli,
Xahişi-xanə göro düşdü müqəddəm qazi.

Çünki divanəyə yoxdur qələm, ümmidvaroм,
Əvf edər cürmümü, gər yüzinə söysəm qazi.

Dasitani-Əmiraslanı bu gündən böylə
Başlaram, fikrim əgər olsa fərahəm, qazi.

TƏBİBLƏRİ HƏCV

Mehdiqulu xana

Mənə buyurmuşdun: Qoləyə gəlsin,
Yenə cuşə gəlib bəhri-iltifat,
Sənin mərhəmətin, mənim ixlasım
Mehri-münəvvər tək aləmə isbat.

Qalmışam aranda müddəti-mürur,
Təbiətə səfra eyləyibdir zur;
İstər idim olam azimi-hüzur,
Naxoşam, hərəkət eyləyib ixlat.

Bağır oğlu Məmməd, Məşədi hacı,
Əliqulu, Müqim sərimin tacı
Hər mərizə eyləsələr olacı,
Ehtiyatın görün, tez olur məmat.

Tiryak yedirirlər, hər kim olsa dıqq,
Heyzədən aldırır xuni-bəsəliq.
Yenə bu hal ilə o qövmi-zındıq
Özlərin sanırlar Ərəstu, Bokrat.

Falicə verirlər qürsi-təbaşir,
Müstəsqiyə əbi-kasni, ma-şəir;
Mərizin mərəzi yəni çokə dir,
Sahibin çapalar üç qatü dörd qat.

Nüsxeyi-tibbdə şeş oxur "şişi",
Məlamətdən yoxdur ğəmü təşvişi;
Təşxisi-mərəzdə həmin danişi
Budur ki,canı var, tərləsin mirat.

Təbiəti-harrə xalis əngəbin,
Qabizə süfurü yəhuda, darçin,
Bəlqəmi-mizacə tüxmi-xiyarin
Münasib bilirlər daimül-övqət.

Mərizin üstünə yetişən məhəl,
Dərviş Kəlbi hazır olur əlbəəl;
Qədəmlərin guya katibi-əcəl
Yazıbdır baisi-movtü münacat.

Fisqləri zahir manəndi-günəş,
Həq bilir sözümdə yoxdu ğəllü-ğəş;
Yolları hər yerə düşsə səyavəş,
Yanlarınca gedər "əyyühəssəlat!"

Gah görürsən bir-birilə tapışır,
Gah atlanıb hər tərəfə çarpışır;
Lənnü tən bunlara elə yapışır,
Necə ali-Məhəmmədə-sələvat.

Qələnin adamı yetdi yarıya,
Necə ki, qoynuna ac qurd darıya;
Az çəkər ki, məzar dəgər barıya,
Bu növ ilə eyləsələr hərəkat.

Vilayətə salıbdılar şur-şeyn,
Şərbət tək içirlər dəmül-əxəveyn;
Bunların yanında qatili-Hüseyn
Zimmədən bəridir ruzi-ərəsat.

Bir kimsəyə ariz ola sədəmə,
Baxmazlar fəqirə, yoxsula, kəmə,
Qədəm götürməzlər, həqqül-qədəmə
Ya on tümən pul gərəkdir, ya bir at.

İmalədə yədi-beyzaları var,
Həqq üçün bir ondan başları çıxar;
Mərəzi-digərdə, inanma zinhar,
Vüqufları ola, heyhat, heyhat!..

Sən gör necə xərab olub zəmanə,
Çəmənli Cəfər də mərdü mərdanə,
O da təbib olub, girib meydanə,
Çölün cəngəlindən yığıbdı qat-qat.

Otuz il laəqəl gedib qoyuna,
Bilfel çobandır, baxsan boyuna;
Dağılmışda xub düşmüşük oyuna,
Yetən olmadımı əhli-kəramət?!

O ki, İsmailin saf azıb vazı,
Gah yerdə qılar ölü namazı,
Gah tapıb özü tək bir annamazı,
İşə qoyar xah türkü xah tat.

Təsəllütü yoxdur "Töhfəyə" əsla,
Bilməz nədir "Qarabadın" mütləqa;
Ağızdan-ağıza öyrənib əmma
"Tibbi-Yusifidən" bir neçə əbyat.

"Gərək bu cahandan eyləmək həzər,
Öz yerində deyil çünki xeyrü şər".
Nə təbib, nə alim, Zakir, müxtəsər,
Axtarsan yoxdu bir niksifat.

ŞUŞA MOLLALARI HAQQINDA

Heyf, səd heyf, bu iş bulmadı əncam yenə.
Üləma özlərini eylədi bədnam yenə.

Şişəyə dəsti-qəza səngi-cəfa yağdırdı,
Şişəvəş sındı bu gün rövnəqi-islam yenə.

Var idi mədrəsəyə rəğbəti xəlqin, qovğa
Düşdü nahaq yerə ortaya bu axşam yenə.

O qədər keçmədi ki, sülh binası pozulub,
Bir-birə şıllaq atar Şeyxəki-əyyam yenə.

Duş həmkasəvü həmsöhbət idi, eylərlər
Haliya bir-birinin küfrünü clam yenə.

Neçə müddətdi kəsad olmüş idi, oldu rəvac
Şöhrü bazardə lataülü düşnam yenə.

Görmədik biz buların dövrdə[1] bir eydi-şərif,
Oldu məsdud dəri-zikr bu bayram yenə.

Zövqü şövq ilə səhərdən rəhi-məscid tutduq,
Zarü məhzun qayıtdıq həmə nakəm yenə.

Misli-səyyadi-cəfapişə yerə danə səpib,
Hərə bir növ qurar mürği-dilə dam yenə.

Yekcəhətlik pozulub oldu qələm tək düzəban,
Yazılır şamü səhər tənlə peyğam yenə.

Bu nə saziş, bu nə islah, çıxıb mənbərdə,
İki gün keçmədi düşdü işə eyham yenə.

Bu sifətlə belə, biz naqisi gör, onlardan
Kəsməzik hiç ölüncə təməi-xam yenə

Var bir qabilü kamil, ona da əhli nifaq,
Ta dinib, derlər, olubdur kişi sərsam yenə.

Xələti-xosrovi-dəhr eylədi əngüştnüma,
Oldu ta Məmmədəli sahibi-ənam yenə.

Var ümidim edə knyaz bu pərxaşə bina,
Tazədən əhli-vilayət tuta aram yenə.

[1] Dövründə

ÜSULİ VƏ ŞEYXİ TƏRİQƏT MOLLALARIN HƏCVİ

Neçələr silsileyi-təbimə təhrik verir,
Rişteyi-nəzmə çəkəm yəni düri-qəltani.

Budu xahişləri kim, baxmayıb ağü bozuna,
Eləyim həcv tamam bayü gədavü xani.

Neyləyim, mən qarışıb... bir şəkl ilə,
Pak qılmaz anı gər bağlayasan dəryani.

Verməsəm vüsət əgər nəzmə, olur namərqub,
Eləsəm cümləsini şərh, düşər tulani.

Çarə oldur ki, yenə hər biridən bir şəmmə
Söyləyib ta ki, qılam həcv Əmiraslani.

Çünki ol fasiqü facir kimi həcvə layiq
Tapmaq olmaz, gəzəsən Gəncə, Şəki, Şirvani

Qalsın, axırda onunla olunur xətmi-kəlam,
Fəsli-əvvəl danışaq məzləməyi-mollani.

Ah, bu müftəxorun dad əlindən, səd dad!
Ki, salıblar necə gör məmləkətə qovğani.

Hərcü mərc eylədilər məzhəbi-isna-əşəri,
Etdilər zirü zəbər bargəhi-iymani.

Hər əlif-bey oxuyan adını ruhani qoyub,
Bilməz öz əbcədini, ruha çəkər suhani.

Alimü fazilü ustad, müridü mürşid,
Nə qədər ki, görəsən dövrdə sərgərdani.

Həmə qovğaləri bəhri-dirəmü əqmişədir,
Həmə təqvaləri şali-əməli-Kirmani.

Vermərəm mən oların taəti-bibəhrəsinə,
Tarı şahiddir özü, məsiyəti-düzdani.

Yenə filcümlə üsul ilə Üsuli danışır,
O ki, Şeyxi saf eylə dibdən urar baltani.

Etməyib şərmü həya göz görə Əbdülləha
Elər isbat sərasər sifəti-sübhani.

Bişü kəm xaliqü məxluqdə bir fərq gərək,
Eləsən nik nəzər – bunda təfavüt hani?

Bir quru isimdən özgə dəxi həqqə nə qalır,
Lənət olsun sənə, ey münkiri-həqq ruhani!

Bəs deyilmi olalar vasiteyi-külli-vücud,
Bəs deyilmi məzhəri-feyzü kərəmi-rəbbani?

Bəs deyilmi olalar şafeyi-ruzi-ərəsat,
Bəs deyilmi səbəbi-fəthi-dəri-rizvani?

Nə rəvadır ki, dəxi bir də edək həqqə şorik,
Biz imami, necə kim, qeyrilər İsani.

İki tarı yenə mümkünmü süluk eyləyələr,
Gərək on dörd yerə bunlar bölələr dünyani.

Qasimü rizq demək gər bu isə, şamü səhər
Şiri-yəzdan götürüb dəstinə paylar nani.

Bu dəni rütbə nə layiq o şəhi-kovneynə,
Haşa-lillah götürə mənsəbi-fərraşani.

Yoxsa qəsdin budu ki, ruzirəsan onlardır,
Sifəti-sanei müşküldü tapa insani.

Yoxdu bir ruzirəsan bari-xudadən qeyri,
Odu muri mələxə rizq verən asani.

Mahiyi-bəhrə qılır qətreyi barani qiza,
Seyd edir bipərü balə məkəsi-pərrani.

Müşrikü mürtədü mərdudü nəsaravü yəhud,
Vəqfdir cümləyə xani-kərəmü ehsani.

Doğrudur, raziqü mühyiyyü mümitdən qeyri
Hər sifət kim, deyələr var sifəti-imkani.

Bir deyən yoxdu ki, ey asiyi-dərgahi-ilah,
Bir xəyal eylə ki, kimdir dediyin böhtani!

Gedəcək düxəzə, bişübhə, o mövla həqqi,
Xaliqi-movtü həyat kim bilə ol mövlani.

Həm dəxi bir də deyirlər ki, Rüsulun Cibril
Batinindən gətirir zahirinə Qurani.

Belə gər olsa, cəmin-şüəra mürsəldir
Ki, yazıb hər biri bir ciild, iki cild inşani.

Onların da yenə vardır neçə ülül-əzmi –
Hafizü Sədiyü Cami dəxi həm Xaqani.

Mən də peyğəmbəri-namürsəliyəm Kolbasanın,
Ümmətim Tanyaqü Külqışlaqü Xızrıstani.

Tutuban rahi-digər xarici olmaq yeydir,
Bu isə tövrü təriqü rəhi-müslimani.

Bilməzəm hiç nə vəch ilə bu ləməzhəblər
Bəhs edirlər ki, mükəlləfdi qamu əşyani.

Əqldir rəhbəri-nikü bədü həqqü batil,
Şeyə ki, verməyib ani, necə tapsın ani?

Tifl ta baliğ olunca ona yoxdur təklif,
Nə dəlil ilə mükəlləf bilərsən heyvani?!

Gəllədən gər xəbər alsan ki, de, rəbbin kimdir,
Göstərər ciddü yəqin ilə sənə çubani.

Bəndəsindən nə təvəqqö elə rəbbin ki, özü
Xəri-barikəşi-biçarəsinə...

Küfrdür qabili-təsbihi-təala bilmək,
Fəzlcyi-xəlqi yeyən sağsağanı, qarğani.

Aşiqin taəti məşuqə səzavər gərək,
Bixirədlər nə bilir rəsmü rəhi-fərmani?

Belə məhbubə ki, əhbabdə yox təbü təvan,
Qoymaz ortayə onunla rəvişi-peymani.

Zihəyata, tutalım, cəhl ilə isbat etdin,
Var oların da dedin hissü şüurü cani.

Elə insaf, nəbatat, cəmadat, gözüm,
Kim inanır ki, tapa mərifəti-yəzdani?

Cümləsin bari-xuda növi-bəşərdən ötrü
Xəlq edib, hər biri bir dərdin ola dərmani.

İns ilə cinnədi təklifi-xudavəndi-cəlil,
Üləma, eylə ki, təfsir qılır fürqani.

Bu nə qovğa, bu nə kavuş, məgər görməmisən
Oxunan vəqtdə sən surəyi-Ərrəhmani?

Şeyxi şəyyadi hərçənd, üsulidə də həm
Yoxdu bir mü qədəri mərifəti-insani

Cümlə bədkarü dilazarü mühilü kəzzab,
Cümlə bidinü süxənçinü şərarət kani.

Əllərində hamının səbheyi-səddanələri,
Dillərində hamının şamü səhər yalani.

Bilə ya bilməyə bir yaxşı ziyafət eylə,
Sal samavarə odu, dövrə gətir fincani.

Bir içim çay ilə yüz şahidi-bidin tapılır,
Necə kim, Əli bəyin çıxdı göyə əfqani.

Cəfəri-kar ki, eşitməz, çalalar, zurna səsin,
Dcr imiş mən hamıdan yaxı eşitdim ani.

Yeddi gündən sonra bir şəxs Dızaqdan yetişib,
Qaziyi-şəhr yazıbdır biri də filani.

Eşidiblər ki, olur şahidi-şio məqbul,
Bağlayıb uzun Hüseynəli dəri-dükkani.

Həzrəti-qaziyə yanındakı Ağa Novruz
Eyləyib hər biri bir tərz münasibxani.

Biri bəqqali-bədəfalü kəlambazü füzul,
Biri əhli-zələmə zadeyi-Şəkkrəbani.

Belə şahidlər ilə hər kəsə deyn olsa sübut,
Kişi neylər dəxi rəncü təəbi-kimyani?

Hər kimin var isə həmmami edər qərzin ədа,
Bari bizlər kimiyə atmayalar böhtani.

Tümən oğlu Nuru netsin ona, ya özgə vəkil,
Əhli-Təbriz təfənnündə... şeytani.

Yox məzəmmət yeri bu babdə hərgiz Əlidə,
Rindi-şəhr ola özü əsli ola Məmqani.

Hər nə oldisə ona qazidən oldu, əlhəq,
Var idi çünki onunla kədəri-pünhani.

Pəmbeyi-eyşini verdi yelə ol bədbəxtin,
Saldı bir dərdə ki, heç nüsxədə yox dərmani.

Yazdı bimeksü təvəqqüf iki saətdə həmin
Surəti-şəri həzarü du sədü tumani.

Şərtdir şər hüzurunda rəhü rəsmi-ədəb,
Nə ki, sərkub olnua bir tərəfin əqrani.

Molla, no molla, əsiri-şikəmi-ender-piç,
Qazi, nə qazi ki, siyr olmaz içə ümmani.

Filhəqiqə, mən onun müxlisi-dirinəsiyəm,
Leyk doğru deməyin şərdə yox isyani.

Doğruluq qalmayıb əsla bu fəna aləmdə,
Sərnigun ola, görüm, beylə, yaman dövrani.

İstər idim dəxi də nəzmə verim tul, vəli,
Dil dedi: "ömr keçib, qət elə bu hədyani".

Əmiraslanə gərək dəftəri-digər yazıla,
Çünki ol bədəməlin qeyr gərək dastani.

Yaxşı həcv eylər idi bu dəmin adəmlərini
Sağ gər olsa idi indi ol İbni-Cani.

Rişteyi-təbimə yox tab verən, çərx əfsus
Eləyib xak ilə yeksan qədi-Babani!

Getdi həmdərdlərim, bisərü saman qaldım,
Bu ribati-kühənin yoxdu sərü samani.

Dəmi-rehlətdi, könül, bari-iqamət açma,
Mizban xar tutar dir köçən mehmani.

Keçdi həzyan ilə övqat bağışla, yarəb,
Bə-həqi-Əli cürmi-məni-pirani.

Nəçidir maliki-rizvan üzünə açmaya dər,
Ola hər kimsənin əldə onun fərmani.

Zakiri-rusiyəhəm, gərçi günahım çoxdur,
Var dəstimdə, vəli, Ali-Nəbi damani.

DİVANBƏYİLƏRİ HƏCV

Səndən ayrılandan sonra, Nəsir bəg!
İstədim qayıram bir nəzmi-göyçək!

Cövlanə gətirəm təb tövsənin,
Seyr edəm meydanın uzunun, enin.

Çəkiləm bir küncə, əlimdə qələm,
Divanbəygilərə bir həcv deyəm.

Deyəm: bu ehmalın nədir səbəbi?
Neçün işlədirsiz bu büləcəbi?

And veribdir sizə sərdari vala,
Gərəkdir ki, etməyəsiz heç riya

Bir kəsin bir kəsdə gər həqqi ola,
Yetirib həqqinə, tez salın yola.

Çünki nə müddəti ərzə vermişəm,
Yüz dəfə özüm də ərz eyləmişəm.

Sən də ki, dönübsən Əmiraslana,
Çıxmazsan oradan dəxi bir yana.

Gecədəndən bir zabusqa yeyərsən,
Gəlib axşamdan dərdin deyərsən.

Mənim tək dərdinə olmaz bir çarə,
Axşam yenə qayıdarsan biçarə.

Qəroz, həcvin qoymuş idim binasın,
Qatam bir-birinə ədna-əlasın;

Bu barədə deyəm bir həcvi-məlih,
Tamamını qılam vaqifi-qəbih.

Əsnayi-süxəndə oldum xəbərdar
Kim, bu təğafüldə özgə cəhət var;

Təqazayi-sevda yadıma düşdü,
Əlaməti-qövğa yadıma düşdü.

Bildim ki, görən kəs o çeşmi-məsti,
Həlqeyi-zülfünün olur pabəsti.

Dami-geysulərə giriftar olur,
Kəsilib taqəti biqərar olur;

Mənzumi-müjəyə eyləsə nigah,
Nizamdən düşər səfi-padişah.

O işvəvü o qəmzəyi-bibədəl,
Əlbəttə ki, qatar divanə xələl.

Türreyi-mişkinin olan əsiri,
Harda görsə sərkub edər Nəsiri.

Valeh olan kimsə qaşları yayə,
Qasimin qismətin atar doryayə.

Mundan imiş belə təğafüli-kar,
Zahirən ərzəmiz on ildə yatar;

Nə məlahət kanı işvədən düşər,
Bizim kimilərin nə işi aşar.

Sən də dəxi eylə bu üzri qəbul,
Divanbəyilərdən heç olma məlul!

VAR ÖZGƏ VİLAYƏTDƏ DƏ TƏK-TƏK KÖPƏK OĞLU

Hüseyn bəyə həcv

Var özgə vilayətdə də tək-tək köpək oğlu,
Hədsizdi bu viranədə, bişək, köpək oğlu.

Hərçənd mənə balta çalan çox idi, əmma
Məcmudən əfzun bu it-əmcək köpək oğlu!

Olmadı deyən bir muna kənd aşrı it ürməz,
Bəsdir bu şərarət dəxi əl çək, köpək oğlu!

Yüz düşmən ola bir kəsə, bir kəs yıxılanda
Filcümlə gərəkdir ola sövkək, köpək oğlu!

Qəhrü-üməra atəşi-suzandı, nə layiq,
Bərqəsd onu hərdəm üfürmək, köpək oğlu!

Fikrin budu, atan yerişi yeriyəsən sən,
Xüm cayini haşa tuta cürdək, köpək oğlu!

Lazımdı o şəxsin vələdindən həzər etmək
Kim, əbləğ ola cəmdəyi lək-lək köpək oğlu!

Derlərdi anan zaniyədir, var idi şəkkim,
Sən ki, belәsən, yoxdu dəxi şəkk, köpək oğlu!

Məşhur məsəldir ki, bitər ot kökü üstə,
Səgdən törəyən axır olur səg, köpək oğlu!

Bu qədri sənə xəlq dedi ağzını saxla,
Həqqən ol...[1]

Qəsdin çörəyin kəsmək idi munca əyalın,
Kəssin səni ol kəsdyin əppək, köpək oğlu!

Keçməz belə dövran, sənin də bu səyaqın
Bərbad olu çün dövləti-Bərmək, köpək oğlu!

Bir kərrə düşübsən qazanılmış çörək üstə,
Sanma özünü yoxsa ki, zirək, köpək oğlu!

Bu bidəti nə ləzgi, nə şahi sevən eylər,
Bu zülmü nə əfqanü nə özbək, köpək oğlu!

Haşa ki, culi-ətləs ilə xər ola tusən,
Müşküldü demək bədgühərə bəg, köpək oğlu!

Dişi-dişi pünhani nədi zərbə girişmək,
Ey batini zən, zahiri erkək, köpək oğlu!

İt itdi, hürən vəqt tanır aşnanı, yadı,
İrs oldu sizə yetənə hürmək, köpək oğlu!

Bədxahlığı tərk eləmə, tənə edər xəlq,
Şayistə deyil əsli itirmək, köpək oğlu!

Knyaz nə kim, cövr eləsə əmri mütadır,
Yox bizdə ona qüdrəti-dinmək, köpək oğlu!

Sən kimi yetən nakəsə, ol qadiri-sübhan
Xəlq eyləməyib məndə əyilmək, köpək oğlu!

Namərd ətəyindən kişi həngami-zərurət
Tutmaqdan isə yaxşıdı ölmək, köpək oğlu!

[1] Əsas divanda misra pozulmuşdur.

Şinel tapılan yer bizə bir vers yarım var,
Hərgah desən yoxdu, gəl ölçək, köpək oğlu!

Qan olmadı bir dəfə açıldı qoyun ardı,
Daim keçininki olu çərmək, köpək oğlu!

Min evlə neçin eyləmisən dəfi-məzərrət,
Asandi əgər Behbudu gəzmək, köpək oğlu!

Beş-altı gədəm var pərişan, oların da,
Kəsb əhlidilər, şüğlü cüt əkmək, köpək oğlu!

Poştlar dağıdıb, yol kəsəninki yalan oldu,
Gərmək satanın yalanı gerçək, köpək oğlu!

Varəm sizin ilə necə ki, var həyatım,
Tab eylə bu gündən belə sən tək, köpək oğlu!

Bağışla, damağım yox idi, müxtəsər oldu,
Müşküldü bu dəm nəzmi yetirmək, köpək oğlu!

Bir növ sənə sikkə vurum həcv ilə, yüz gəz
Suhan çəkələr eyləmyə həkk, köpək oğlu!

VAR MÜLKİ-QARABAĞDA ÇOX DUN KÖPƏK OĞLU

Hüseyn bəyi həcv

Var mülki-Qarabağda çox dun köpək oğlu,
Haşa kim, ola bir belə məlun köpək oğlu!

Sən səngi-cəfabirlə mənim könlümü yıxdın,
Yıxsın evini qadiri-biçun, köpək oğlu!

Yox səndə məgər şərmü həya, bir kəsə eylər
Bu zülmü nə həccacü və Məmun, köpək oğlu!

Munca nədi kim, dinini dünyayə satırsan?!
Yığdı o qədər neylədi Qarun, köpək oğlu!

Bir dərdə salıbsan ki, məni çarə tapılmaz,
Hərgah gələ Loğmanü Fəlatun, köpək oğlu!

Eşşəkdən at olmaz, çulunu eyləyəsək gər
Ya tirməvü ya ətləsi-gülgün, köpək oğlu!

Əfali-bədin qıldı Qarabağı müləvvəs,
Pakt etmək onu lücceyi-Ceyhun, köpək oğlu!

Hərçənd müsəlmandı adın, yaxşıdı səndən
Taətdə Mıkırdış ilə Ərtun, köpək oğlu!

Kimdir o çörəksiz qapına şad gəlib, axşam
Qayıtmaya dilxəstəvü məhzun, köpək oğlu!

Üftadədərin dəstini tut ta nəfəsçin var,
Həmvarə dolanmaz belə gərdun, köpək oğlu!

Hər kim tanıdı, tapdı səni oldu peşiman,
Bir mən deyiləm beylə cigərxun, köpək oğlu!

Kimin evinə düşsə sənin məqdəmi-şumün,
Yeydir ki, düşə zəlzələ, taun, köpək oğlu!

Hər bəndini bir kəsdən alıb madərin, oldur,
Səndən görünür kari-digərgün, köpək oğlu!

Bir acı xiyarca mənə iş görmədin əsla,
Dursun gözünə yük-yük o qavun, köpək oğlu!

Dörd yük sarı buğda keçən il vurdu qatırçın,
Yolda üyünüb getdi sizə un, köpək oğlu!

Dünya işi əql ilə deyil, talei-meymun
Çəkmiş nə yerə gör səni, meymun köpək oğlu!

VÜCUDİ-LƏTİFİN, EY TACİ-SƏRİM

Cəfərqulu xana

Vücudi-lətifin, ey taci-sərim,
Eşitdim Qələdə bərhəm olubdur;
İztirabə düşüb bu macəradən
Təmam əhli-Şişə, pürğəm olubdur.

Qış günü Doyranda qalan əhli-beyt,
Yay Əylisə məskən salan əhli-beyt,
Didarına müştaq olan əhli-beyt
Üzün görüb şadü xürrəm olubdur.

Təəccüb eylərəm, Allahu əkbər,
Boyaqçının küpü azıbdır məgər?
Yüz ildi nəzərdən saldığın Yetər
Təzədən sizinlə həmdəm olubdur.

Qövmü qardaş düzülübdür yanına,
Duagudur şövkətinə, şanına;
Neyləsin, qarışıb qanı qanına,
Fəqirlər siləyi-orhəm olubdur.

Otaqda qatıban qurunu yaşa,
Yeyərlər, içərlər verib baş-başa;
Biz görən tək deyil Abdulla paşa,
Cürət bəhəm edib, ötkəm olubdur.

Düşmüşdü nəzərdən müddət binəva,
Çıxmalı deyildi üzə mütləqa;
Neçə gündü saçı, saqqalı,guya,
Külahi-buxara püf-nəm olubdur.

Öz xələfin gərək gözləyə kişi,
Sağlığında ola alış-verişi,
Hidayət ağanın düzəlib işi,
Vəliəhdliyi möhkəm olubdur.

Xan varisi lazımədir ola xan,
İşləyə bəratı hər tərəf, hər yan;
Gurbəyə dönmüşdü biçarə oğlan,
Zahirən ki, indi Rüstəm olubdur.

Mehrü məhəbbətin keçsə bu minval,
Çıxar aralıqda olan qiylü qal;
Basqın qoşun kimi dağılan ətfal
Yığılıb üstünə, sərcəm olubdur.

Rağib indi cövrü zülmə hər zaman,
Təbiətin zahir, felin nümayan;
Gəlib gedən söylər bəndəgani-xan
İndi İbrahimi-Ədhəm olubdur.

Bir kimsə yüz ola fəhmdə sərraf,
Eyləyə Kəbəyə min kərrə təvaf;
Hədd-yəqin olsun sənə, biinsaf
Hər iki aləmdə mülzəm olubdur.

Qorxuram göz dəyə bu ittifaqə,
Bir az əhli-hərəm qoysun aşağə;
İltifatın daim övrət-uşağə
İnanmazam əgər görsəm olubdur.

Bunlar yola gedər, bir tazə xəbər
Yetişib güşimə, rast olsa əgər;
Tərəhhümə gəlib deyirlər dilbər,
Təmam müddəilər əbsəm olubdur.

Rüxsari-alından manəndi-günəş,
Düşmüşdü sərasər cisminə atəş.
Şükr eylə qadiri-biçunə, məhvəş
Zəxmi-dəruninə mərhəm olubdur.

Bir müddət keçirdin ahü zar ilə,
Qəmü möhnət ilə, intizar ilə;
Adətdi aşiqin nazlı yar ilə
Arasında belə çəm-xəm olubdur.

Hər hacətin olsa istə xudadən,
Əl götürmə təvəkküldən, duadən;
Aşiqə məşuqun başdan, binadən,
Nazü istiğnası hərdəm olubdur.

Əmanət, əmanət, dəyməsin ara,
Düşməsin ədavət bir də dübarə;
Şamü səhər eylə təməllüq yarə,
Həq yetirib, özgə aləm olubdur.

Tusəni-şəhvəti geri çək bir az;
Olmasın səg rəqib zəbani diraz;
Allah eyləməmiş, olursuz nasaz,
Bir zaman görərsən dərhəm olubdur.

Yarımayıb kimsə ömründə səndən,
Mükəddər qayıdır qapına gələn.
Əsirgəmə feyzin, ey qibleyi-mən,
Düşəndə Zakirə kəm-kəm olubdur.

NƏZMİNİN CAVABIN, EY TACİ-SƏRİM

Cəfərqulu xana

Nəzminin cavabın, ey taci-sərim,
Götürüb dəstimə bir qələm-dəvat,
Fikrimə gələndən yazıb göndərdim,
Bağışla, gər olsa təfritü ifrat.

Dəyib bir-birinə yeksər Qarabağ,
Minnət çəkər idim sürçəndə ayaq;
İstədim həcv edim bir özgə sayaq,
Amma yenə mane oldu ehtiyat.

Ac yadına düşməz hər kim tox olur,
Yoldaşını yox istəyən yox olur;
Vilayətin yarısından çox olur,
Biiymanı edən olursa podrat.

Sən özün bilirsən bizdən gələni,
Allahı sevərsən dindirmə məni.
Yalanı kürsüyə mindirir qəni,
Ac eyləyə bilməz doğrunu isbat.

Fülüsümüz yoxdur zərdən, gümüşdən,
Nə tökülür bizə ha böylə işdən;
Buğda yeyib, biz çıxmışıq behiştdən,
Bir də adəm olaq, heyhat, heyhat!..

Əyyami-sabiqdə biz idik sipah,
Səfərdə, həzərdə Pənahə pənah.
Sizin dövrünüzdə bicürmü günah,
Bilmədim, nə oldu, olduq vinovat.

Qədimi qəminə haçan qalıbsız?
Bacara bildikcə canın alıbsız.
Baba bəyi elə hala salıbsız,
Görən adam deyir: "əyyühəssəlat!"

Fəqir İsrafil bəy dünyadan köçdi,
Ruhi-mütəhhəri bədəndən uçdi,
Bilirik, tümənə abbasi düşdi,
Borclular malını etdi tümənat.

Əhli-kərəm olan neylər deməyi,
Əldən düşmüşlərə gərək köməyi,
Sən gör nəvvadeyi-talıbxan bəyi,
Yalınlıqdan olub dabanı çat-çat.

Böyük daldasında kiçiklər yatar,
Yeyib-içib, verib, alıban satar;
Sileyi-ərhəmə, qəpiyə söz var,
Dağıdır özgəyə biqəbzü bərat.

Sarıcalu adın gətirmə dilə,
Var imiş Xudadən əlbəttə belə.
Eşşək az qalıbdır çata mənzilə,
Onu bundan sonra tuta bilməz at.

Mühəvvəldir işlər neçə hərzəyə,
Özü bisəvadə, adı mirzəyə,
Boyaqçıya, başmaqçıya, dərziyə
Nə vəqtədək olacayıq ikiqat.

Bir adam var gecə-gündüz çalışır,
Hər yerdə ki, bir iş olsa qarışır,
Dindirəndə elə dilli danışır,
Donquz oğlu guya yeyibdi bat-bat.

Giribdir meydana neçə beyinsiz,
Deyir: vilayətdə elə bizik, biz!
Çünki verən yoxdur təşxisü təmyiz,
Qədrdə əzvaydan kəmtərdir nabat.

Oturur üzbəüz gəda ilə xan,
Yaxşıdan irəli düşübdür yaman;
Dəyişilib əyyam, dolanıb dövran,
Kişmiş ilə hüccət edir qaraqat.

O kəslər ki, tanımazdıq övladın,
İndi famil ilə çağırdır adın;
Görür bilən yoxdur ağzının dadın,
Quyruğa tən edir ... içalat.

İddiayə düşüb hər yetən gədə,
Börkünü dik qoyub, danışır dədə:
Beş manatlı kişi yoxdu ölkədə,
İşlərimiz saf olubdu ixtilat.

Söz yox idi Kakil bəyi-Qərvəndə,
Biçarə sonradan oldu şərməndə;
Yoxsa əvvəl belə, yeri düşəndə,
O idi ölkəyə baisi-həyat.

Qərvənd Meydanəli, o cinli Budaq,
Çəmənli Hatəm xan olaydılar sağ,
Belə keçməz idi mülki-Qarabağ,
Tezlik ilə həll olurdu müşkülat.

Hamıdan bir kənar, Talıb xan ağa
Dağıdırdı, ağzın dirəsən dağa,
Amma özü az gəlirdi yığnağa,
Səhranişin idi əksərül-ovqat.

Adam gedib, ölkə qalıbdır xali,
Qorxuram pis gələ bu işin dalı;
Hanı Lələ Həsən, hanı Zülfalı?
Kişilər var idi, alidərəcat.

Fələk yaxşıları əldən alıbdır,
Bir arada Feyzulla bəy qalıbdır;
Onun da saqqalı alalanıbdır,
Hanaya yaramaz ip olsa çarqat.

Mərdümi-vilayət gərək ittifaq,
Bir-birindən ola mütməinü saq;
Ortaya ki, düşüb bu növi nifaq,
Yeridir ki bizdən tutalar saldat.

Sərasər əsbabi-cəngə dolublar,
Bir-birinin balü pərin yolublar;
Mən yox idim, eşitdim ki, olublar
Cavanşir bir dəstə, Kəbirli bir part.

Kişi dövlətinə pasiban gərək,
İşarə anlayan, söz qanan gərək;
Bu dövrdə adam yekzəban gərək,
Müsəlman, tərəkəmə, tat.

Bəla bayə baxar, nə də gədayə,
İşlər çox yamandı, pənah xudayə!
Görmədinmi düşmən aldı arayə,
Viran oldu Kabil, dağıldı Herat!

Tökülüb çöllərə mülkü malımız,
Günbəgündən yaman olur halımız.
Maşallah, gecə-gündüz valimiz
Çalır fortopiyan, oynayır bilyard.

Qüttaüt-təriqin işləyib nəqşi,
Rəhzənlərə vardır xudanın bəxşi;
Vilayəti viran eylədi yaxşi,
Bir qafili-piyan, bir mayili-kart.

İş keçsə bu surət bir müddət əgər,
Qalmaz Qarabağda şənlikdən əsər;
Eşidib əhvalı, bilmənəm məgər
Bir binagüzarlıq edə Neydqart.

Düşübdü təxirə vilayət işi,
Tutubdur aləmi qəmü təşvişi;
Məsləhətə bəsdir beş-altı kişi,
Dəxi nə lazımdır bunca həşərat?

Naxçıvan sağında, Şirvan solunda,
Hər vilayət təriqində, yolunda;
Mən bilirəm Xındırıstan kolunda
Bir ölkədən olmaz iki deputat.

Mənə düşməz, deyim belə cəvabı,
Müşküldür bu əmrə gətirmək tabı;
Xah bihesab ola, xahi hesabı,
Beş şahılıq işə gərək on manat.

Varmı ola, yarəb, bunlar kimi pis,
Bir dəni, biədəb, dərunu xəbis;
Nə qədər varındır – iznakom, sadis!
Olmayanda deyir: "poşol, ...",

Ərzə verə bir adamın pədəri,
Fərzəndinə olmaz zahir əsəri;
Yetmiş ildən sonra nəvvadələri
Məgər ondan tapa bir rahi-nicat.

Dolu düşüb vilayətin nisfinə,
Bir para yerlərdə gəlmədi çinə;

Bu hal ilə qorxum ondandır yenə –
Keçən illər kimi gələ təhmilat.

Həqq özü şahiddir, dövləti-ali
Mu qədər deyildir ədldən xali.
Salan aralığa bu qiylü qali
Vardı özümüzdən bir neçə bədzat.

Rüx verdi vəzirə bəxti ziyadə,
Fili-sərkeş cövlan edir aradə;
Atın güzərgahın kəsib piyadə,
Fərzdir şah ola qəm evində mat.

Alimdə əməl yox, abiddə taət,
Götürülüb həya, tərk olub ismət;
Göydən yerə düşməz barani-rəhmət,
Kimiyadən kəmyab olub nəbatat.

Bir dövlətim yoxdur qalam qəminə,
Hər kimin varıdır xoşa dəminə;
Çağırram, qalmayıb bişü kəminə,
Gecələr sübhədək qaziyülhacat.

Xan dövrü hər kimin bəxtiyar idi,
Həqq istədi, müftə nanə daridi;
Əvvəl-axır bir təliqəm var idi,
Onu da dörd ildir aparıb senat.

Məsləhət adamı gərək xirədmənd,
Danışığı mərbut, sözü dilpəsənd;
Zuri-bazu verib sənə xudavənd,
Hər kim ki, bihesab danışır, al yat!

Yetənə deyirsiz gəlsin burayə,
Mən bilməzəm səbəb nədir, hərayə?
Hər kimsə ki fəsad salır arayə,
Deyin övrətini ... qubernat.

NUŞİRƏVANÜ HATƏMİ QANUNİ DƏHRDƏ

Həcv

Nuşirəvanü hatəmü Qanuni dəhrdə,
Hərçənd qoydu nami-niku ta dəmi-əbəd.

Ali-Xəlilə cudu səxadə nə nisbəti,
Əfsus, yoxdu kimsədə təşxisi-nikü bəd.

Ol biri bağladı dəri-zülmü itabü qəhr,
Bunlar yetirdi xəlqə "inayət" füzun zi həd.

Pişü pəsin ünasü zükurə qılıbdı vəqf,
Qalxar, çökər cəmini-xəlayiq rəsəd-rəsəd.

El və elatdə buların xani-vəslinə
Kimdir batırmayan səri-əngüşt bir əhəd?

Daimtələbdi xah zimistanü xah yaz,
Mərdü zənində yox buların çəmxəmi-ləgəd.

Həmsayədir biri bizə, zinhar görməyib
Ömründə hiç failinin köksü dəsti-rədd.

Gəlməz şümarə kim, yazım əhvalını təmam,
Öz başının tükü sanıdır fisqinə ədəd.

Mən böylə zati sərzənişi-ammə nə eyləyim,
Məcmui-qəhbədir dişisi, erkəgi ləvənd.

Fərxəndə bəxti var, kimin ... səxti var.
Olmuş odur ki, nisfi-Qarabağ mötəməd.

Yaran, nə növi silsilədir hiç gözləməz,
Namusu nəng, ismü rəhü rəsm əbavü cəd.

Yeksər ləimü müşrikü ədnapərəstü dun,
Yeksər səfihü naqisü divanəvü həpənd.

Cümlə fəqiri-zalimü həm zalimi-fəqir,
Cümlə xürusi-dəstidilər makiyanpəsənd.

Çöldə, bayırda rubəhi-aciz kimi zəbun,
Evdə, eşikdə hər biri bir şirü divü dəd.

Çoxlar demişdi həcv, dəxi mən də baxmayıb
Yazdım bu babdə neçə əfradi-guşzəd.

Qılsın nəsibi-gürgi-əcəl kusfəndvar
Ha böylə nəsli-bədəməli qadiri-səməd.

Rüsvayi-aləm etdi bizi, Zakira, görüm
Olsun təmami tezlik ilə sakini-ləhod.

KNYAZ XASAY USMİYEV HAQQINDA HƏCV

Rəhim bəy Uğurlubəyova

Rəhima, cövr edir hər dəm mənə bir naqolay knyaz,
Gəhi Tərxan, gəh Cəfərqulu, gahi Xasay knyaz.

Olub knyaz yatağı bu dağılmış xeyli müddətdir,
Fərağət olmarıq bir dəm geday knyaz, gəlay knyaz.

O yaxsay, mən qarabağı, mənimlə yoxsərü kari,
Nə istər bilməzəm məndən genə xingəl-quşay knyaz.

Dağıstan dağının knyazlarının ləzzətini gördüm,
Qalıbdır bir həmin Əndi, Çeçen, bir də Cüngətay knyaz.

Səxavət umma ondan, harda görmüş vermək, almağı,
Onunki bir odur içsin buzə, çalsın dalay knyaz.

Gələndə bir üzü, bir cüt qulağı, saf quru ...,
Xüsusən aləmi etmişdi yeksan püştü pay, knyaz.

Yetim dürmək tapanda çünki bir iylər, iki dişlər,
Düşüb əmlakın üstə ikiəlli qarmalay, knyaz.

Dedim ol mədəni-feylə bulunsun canişin, yarəb,
Bulundu, heyf kim, bixeyrü xayin, süstray knyaz.

Hərarət çeşmi-kəmbinayə nöqsan olduğun bilmiş,
Gələr payız Qarabağə, qaçar Əlbürsə yay, knyaz!

Üç ay qış cövrü zülmünə, könül səbr eylə,
Papağın fırla ha gəldi yaz olacaq ustu pay, knyaz

Yetirdi həq sənə bu dövləti birəncü bizəhmət,
Tikər kor leyləyin həqqa, yuvasın ol xuday, knyaz!

Qəzanın gərdişin gör kim, verib bu Şişə şəhrində
Gəlib bir naqisü nadan yapa köşkü saray, knyaz.

Belə knyazı həqq alsın əlimdən, mən tutum matəm,
Vurub başimə hər ləhzə deyim: ey vay, vay, knyaz!

Qolumuzdan tutan yox, qılçamızdan qaldıran çoxdur,
Bizə qəht oldu bu aləmdə bir müşkül-güşay knyaz!

Bir ayğır tay-bağırsaq olsa, at ondan qulun tutmaz,
Budur vəhmim – bizim düxtər gəzə daim subay, knyaz.

Ləamət öylə qalibdir o bidinü dilazarə,
Siyavuş qanıdı yanında bir fincan çay, knyaz.

Əgər yoxdur bu illət səndə yüz lənət mənə gəlsin.
Sifatın zəmmini nəzm ilə yazdım cabəcay knyaz!

GÖRÜN BU ÇƏRXİ-DUNPƏRVƏR NƏ NÖVİ RUZİGAR EYLƏR

Görün bu çərxi-dunpərvər nə nöii ruzigar eylər,
Çəkib ağuşuna hər naqisi kamil əyar eylər,
Xilaf əhlin sərəfraz, əhli-sidqi xakisar eylər,
Mənim könlüm rəqibin tənəsindən çox qubar eylər,
Açıb dərdi-dili-pünhanı xəlqə aşikar eylər.

Açıb ibrət gözilə bir nəzər qılsan bu dövranə,
Hücumi-məsiyət rəxnə salıbdır mülki-iymanə,
Olub şeytanə tabe, baxmaz insan huri qilmanə,
Pərilər taət eylər sidq ilə quli-biyabanə,
Görən fərzanəvü aqil necə səbrü qərar eylər.

Edib məzul sərdarı, olub sərvər rəiyyətlər,
Yığılmış başına ovbaş, həm əbləh cəmiyyətlər,
Olubdur aşikara xəlq içində neçə bidətlər,
Verib çərxi-sitəmgər bunlara bivəch dövlətlər,
Çəkib hər nakəsü nadani sahibixtiyar eylər.

Olubdur xəlq zalım, qəlb xain, qəflət əyyamı,
Edirlər fisq zahir, kimsə çəkməz xovfi-bədnamı,
Deyərlər qaziyə böhtan, bəzəllər şeyxül-islamı,
Soran yoxdur münəccimdən: nədir bu əmrin ehkamı
Ki, hər mahi-mühərrəmdə bular bir səngsar eylər?

Ola bangi-xürus bir makiyanın xanədanında,
Şükuhi-səltənət payəndə olmaz xanimanında,
Qərəz, bir xarü xəscə sayə qalmaz asitanında,
Firibü məkr ilə şahbazı bir gün aşiyanında
Salıb dami-bəlayə, xanimanın tarmar eylər.

İlahi, görməsin gözlər bu əhvalı ki, mən gördüm!
Süleyman barigahın payimali-Əhrimən gördüm,
Məvalilər müsəllasın kinişti-bərhimən gördüm,
Nişiməngah idi şahbazə bir sərvü-çəmən, gördüm,
Yığılmış üstünə zağü zəğən əzmi-şikar eylər.

Dönüb vəzi-zəmanə, fərq edən yox ziştü ziybanı,
Seçən yoxdur müsəlmandan yəhudü gəbrü tərsanı,
Zühur et, ey şəriət təxtinin şayəstə sultanı,
Götür bürqə əmalından, münəvvər eylər dünyanı,
Qalıb zülmətdə aləm, göz yolunda intizar eylər.

Səmumi-sərsəri-dövran pozubdur bağ növrağın,
Çəməndən dağıdıb bərqi-həvadis səbzə yığnağın,
Edib viranə takın bağ içində zərnişan tağın,
Gülün fərş eyləyib badi-xəzan səhrayə ovrağın,
Görüb biçarə bülbül arizuyi-novbahar eylər.

Tərəhhüm görmədim munda mən ol bimehr canandan,
Dəyəndə sinəmə yüz min xədəngü tir müjgandan,
Pərivəşlər məgər sormaz xəbər hali-pərişandan,
Görünməz xeymeyi-Leyli, köçüb getmiş biyabandan,
Qalıb Məcnuni-sərgəştə, qan ağlar, ahü zar eylər.

Təriqi eşqdə mən vurmuşam Fərhad ilə pəhlu,
Deyil vaqif mənim halımdan ol Şirinveş bədxu,
Rəqibi-bimürüvvətdən, bilir həq, çəkməzəm qayğu,
Deyirlər əhli-eşqə cövr olur, əğyardəndir bu,
Yalandır, aşiqə hər zülm olursa, bil ki, yar eylər.

Təğafül bilməzəm ki, xubrulərdə nə adətdir
Ki, çəkməzlər qəmi – üşşaqı bir dəm, bu nə söhbətdir?
Qərəz, bir güşeyi-çeşm ilə baxmaq eyni-dövlətdir,
Bəlalı başlar üzrə sayə salmaq çox məhəbbətdir,
Məhəbbət görsə aşiq, dost yolunda can insar eylər.

Həzər qılsın görən kəslər, bu nə məğşuş dövrandır,
Onunçun kim, gədavü şahü sultan cümlə yeksandır,
Əgər künci-fərağət istəsən bir kənci-pünhandır,
Şikəstə Zakirəm, könlüm mərizi-dərdi-hicrandır,
Əlaci-dərdimi əvvəl-axır həştü çahar eylər.

GÖZLƏYƏN KİMSƏ GÖZÜM, HƏQQİ DEMƏZ AY SƏNƏ

Gözləyən kimsə, gözüm, həqqi deməz ay sənə,
Nəçidir ay vəcahətdə ola tay sənə!
Sən kimi, görüm onun çöhreyi-tabanımı var?
Xali-hindusumu var?
Zülfi-pərişanımı var?
Bir sarı rənglicədir əvvəli əyri "nun" tək,
Elə ki, keçdi iki-üç gün olur parə çörək.

Bəzi məclisdə qədin sərvü sənubər oxunur,
Tanrı bilsin ki, bu saf, qamətinə şər oxunur.
Qamətin kimi onun afəti-dövranımı var?
Əzmi-cövlanımı var?
Seyri-xuramanımı var?
Bağ kənarında əkər bağiban ani tək-tək,
Mundan ötrü ki, kümə məsrəf olur tirü dirək.

Zülfünə sünbülü-tər kim ki, desə, ölməlidir,
Urula payına zəncir gərək kim, dəlidir.
Sünbülün səfheyi-rüxsar üzə dövranımı var?
Ənbər əfşarımı var?
Nəkhəti-rizvanımı var?
Bir ələfdir ki, yeyər daim onu atü eşək,
Əvvəlki kahi-təbəh, axırı biqürb təzək.

Müddəilər gözünə nərgisi-fəttan dedilər,
Kim inanır bu sözə, göz görə böhtan dedilər.
Nərgisin çeşmi xumarın kimi məstanımı var?
Tiği-bürranımı var?
Navəki-müjganımı var?
Yaz olur, həqdi, bitər bir şeyə olmaz o gərək,
Əqli zad kəsməz uşaqlar yığar ani tək-tək.

Ağzını duş biri qönçəyə nisbət söyləmiş,
Heyf mən olmamışam, bu sözü xəlvət söləmiş.
Qönçənin ağzı nədir, ləfzi-dürəfşanımı var?

Ləli-meygunumu var?
Gövhəri-qəltanımı var?
Həmdəmi xar, özü bibəhrəvü həm ömrü gödək,
Dağılır hər vərəqi bir tərəfə bad əscək.

Nə rəvadır, ləbi-ləlin meyi-gülfam olsun,
Onu bədnam qılanlar özü bədnam olsun.
Ləli-nabın tək onun duzluca xəndanımı var?
Abi-heyvanımı var?
Dərdlərə dərmanımı var?
Əsli zatı bu ki, bir bistilik ənguri-tənək,
Quyşaq üzüm suyu, sərmənzili bir saxsı sənək.

Şikəmi-əbyəzinə kim ki, desə pərqudur,
Qeyri-eşşək dəxi hacət deyil, eşşək budur.
Mundan ötrü qu bir ağ quşdu, adı-sanımı var?
nafi-fincanımı var?
Höqqeyi-pünhanımı var?
Bir deyən yox ona: ey hərzəvü bimağzü dəbəng,
Nə münasib şikəmi-əbyəzə bir çəngə sümək.

Vurun ağzıma, desəm limu əgər püstanə,
Ol iki qübbeyi-nur, tazəvü tər püstanə.
Eyşü nuşində onun ləzzəti-ruhanımı var?
Səhni-meydanımı var?
Zövqi-firavanımı var?
Özü bədşəkl, ağızda təmi manəndeyi-zəg,
Bir atın qiyməti olmaz kişi satsa yüz ətək.

Ziynəti-kuyini gərdunə bərabər deyənin,
Cırasan ağzını min guşəyə ol bədsüxənin
Ki, göyün, hərzə kişi, lölöi-mərcanımı var?
Düri-məknunumu var?
Ləli-Bədəxşanımı var?
Sanıb əncüm güvənir həqdi-gəhi-tasi-fələk,
Çərx miratına yerdəndi düşüb əksi-çiçək.

Qoyma kuyində rəqib höccəti-bica tutsun,
Aşiqi-sadiqini bülbüli-şeyda tutsun.
Zakirin kimi onun sövti-qəzəlxanımı var?
Təbi-mövzunumu var?
Şeiri-nümayanımı var?
Eşidən incir onun tərzi-nəvasın, bişək,
Şivəsi cəngü cədəl, naleyi-əfğanı kənək.

SAQİ DOLANIM BAŞINA, ALLAHI SEVƏRSƏN

I

Saqi, dolanım başına, Allahı sevərsən,
Bir cami-şövəqgun ilə qıl könlümü rövşən.

Həmralənir içdikcə rüxi-zərdi-hərifan,
Həm özünə, həm badeyi-külgununa əhsən!

Bəzm əhli tikibdir sənə yeqsər gözün, əmma,
Gözlə məni, cana ki, füzun qəmzədəyəm mən.

Növbət ki, məno yetdi meyin kəsmə arasın,
Ver badeyi-sorşar nə qədri ola mümkən.

Bir növ pərişanü digorgunü xərabəm,
Fərq eyləməzəm şami-siyəhfamı səhərdən.

Təklif nə hacətdi, gözüm, vaqifi-halə,
Dildadələrin dadrəsi, yavəri sənsən.

Billah, gecələr muyi-tənim bəstəri-qəmdə
Sancar bədəni ta bəsəhərgah çü suzən.

Bicürmü günəh ateşə yaxdı dili-zarı,
Bir zalimi-birəhmü cəfapişəvü pürfən.

Xoşbəxti-cahandır belə napak əmirin,
Ta ruzi-əbəd şərrü xətasından olan gən.

Ta var həyatım yazaram həcvi-mükərrər,
Düşsə əlinə nüsxəsi bir gəz oxu, ögrən.

Yəni ki, sitəmpişənin əcdadına lənət,
Həm özünə, həm sairi-övladına lənət!

II

Tanır məni məcmu otuz iki Cavanşir,
Bu mərdi-xoşəxlaqəmü həm sahibi-tədbir.

Rövşəndi qamu aləmə: zatımda xudavənd
Xəlq eyləməyib mu qədəri hiyləvü təzvir.

Eymandilər əzbəski, olub ram, rəm etməz
Gördükdə məni badiyədə ahuyi-nəxcir.

Əl vurmazam əsla sipəri-dəfi-bəlayə,
Yağdırsa kamandari-fələk qəsdimə səd tir.

Bir gəz nəzəri-ibrət ilə eylə təmaşa,
Təqdiri-qəzavü qədərə, şahi-cahangir.

Bir hizə edib külli-Qarabağı mühəvvəl
Kim, ləl ilə xərmöhrəyə bilməz verə tövfir.

Şərh eyləməyə qorxuram əmma ki, rəvadır
Məcnun kimi daim urula payinə zəngir.

Olmadı deyən bir muna, key naqisü nadan,
Söylə, nədi bu bikəsü biyavarə təqsir?

Girəm ki, tutub rahi-zəlalət neçə müfsid,
Mümkündürmü, dəf eyləyə yüz novrəsi bir pir?

Ey qadiri-biçun, bu dili-səxt bəxili
Bər hörməti-şahi-şühəda eylə sərazir.

Yandırdı bizi atəşi-qəhrü qəzəbi-dəhr,
Ey vah ki, yox ahi-səhərgahdə təsir!

Əfsus ki, islamın işi müşkülə düşdü,
Yox çarə dəxi səbrdən özgə, belə düşdü.

III

Bu mahi-mühərrəmdə dü si həft məna sal,
Müddətdi ki, pərqu kimi əbyəzdi pərü bal.

Şahiddi xudavənd-təalәvü təbarək,
Tərpətməmişəm mən süxəni-nahəqə saqqal.

Haşa yetirəm bir kəsə asibü məzərrət,
Gər eyləməsən bu sözümə bavər, o jurnal!

Ta gördüm o bədbəxt olub həmrəhi-gümrah
Halatı, müfəssəl yazıban eylədim irsal.

Labüd qalıb ondan sora dönə-dönə etdim,
Tərğib onu dəfinə bu zalımı filhal.

Guş eyləməyib pəndi-xirədməndi o nakəs,
Axır qoşulub bir-birinə bir neçə cühhal.

Hər kimə düçar oldu, tutub basdı və kəsdi,
Verdi özünü küncə təmam murəvi-mahal.

Beş-altı kəm alat cavan ilə olurmu
Hifz edə vilayatı məni-piri-bədiqbal?

Düşmən sipəhi tək bir obanın yoxü varın,
Bir həftə qalıb eylədi məcmuunu pamal.

Ərradəyə yığdırdı qamu əhli-əyalı,
Səqfi-fələyə çıxdı o gün naleyi-ətfal.

Həccacü Ömər-Səd deyildi belə birəhm,
Ol ... bicliyinə hiç yox işkal.

Bəd kar həramtuşədən əsla iraq olmaz,
Bic olmayanın zülmü olur, bu səyaq olmaz.

Bir şəmmə eşit şurü şəri leylü nəhari,
Həmvarə onun şəbədəvü fitnədi karı.

Qan tökməyə, ev yıxmağa çox təşnədi əzbəs,
Oldur cəhəti kim, kəsilib səbrü qərarı.

Hər qanda görə xatiri-xürrəm, dili-məsrur,
Onlar sarı səngi-sitəm atmaqdı mədarı.

Bari-qəmi-dəhri çəkərək xahü nəxahi,
Müşküldü yemək dəğdəğeyi-qürbü cəvarı.

Həngamə tələb çoxdur, xüsus əmmi Böyük bəy
İstər bir ovuc torpağımız saf bölə yarı.

Bir mərtəbədə cuşdədir diki-dəruni,
Doymaz gözü məcmu cahanı verə tarı.

Hər kimsənə kim, oldu şikəmbəndəvü təmma,
Bəsdir deməz əsla uda gər köklü çinarı.

Şirxan neçə müddətdi mənə düşmən idi, leyk
Şimdi vəli dilsuzluq etmokdi şüarı.

Ol kim, Əli bəy altı qəbiz bəhrədən ötrü
İstər ki, olam azimi-qürbət məni-zarı.

Öz xeylinə sərxeyli-vilayət yetirir feyz,
Bu verdiyini istməzik, almaya barı.

Ha beylə işi eyb deyil eyləyə cühhal,
Həştad sə sənində nə kim piri kühənsal.

V

Gün kimi tutub aləmi bu şöhrəti-biyca,
Divan əmələcatına yox ədldə həmtə.

Vallah, yalandır, dəxi billah, yalandır,
Şol söylənən əhval quru ismdir əmma.

Keyfiyyəti-məlumdən ötrü mən özüm də
Bir neçə biladi elədim seyrü təmaşa.

Yüz təşnələbi-qəhr olasan, xadimi-dövlət
Verməz bir içim su sənə ta almaya dərya.

Simü zər ilə doldurasan ta gərək ovcun,
Ondan sora zahir qıla şayəd yədi-beyza.

Suzü təbişi-nari-səqər gərçi yamandır,
Əhli-qələmin gəl-gedinə bənzəyə, haşa!

Yeksər həmə təmmamü bədətvarü dilazar,
Bunlar kimi məxluq cahan içrə yox əsla.

Hər kimsə ki, düşdü tora müşküldü xilası,
Çəkməzlər əl ondan şirəsin sormayalar ta.

Hər nəfsə nüzuli-mələkül-movt nə hacət,
Bəs ariz üçün vədeyi-fərda, pəsi-fərda.

Düşməz buların səmtinə ta ruzi-qiyamət,
Təklə Hacı Qurbani görən kəs dəxi qəta.

Tutmuşdu Qarabağı zərü simü dəvabı,
Tapmaz minə bir yabı gedə qonşuya hala.

Divan demə, hərgiz buna kim, afəti-candır,
Mən söyləmədim, nola ki, məşhuri-cahandır.

VI

Ta tökdü fələk yer üzünə səngi-cəfanı,
Bilkülliyə vəqf etdi Ziyad oğluna anı.

Təchiz əvəzinə qızının pişü pəsincə,
Göndərdi bu bərbadə neçə səngi-giranı.

Ondandı ki, nəvvadəsi hər canibə tullar,
Məcruh qılır mən kimi yüz bəxti-qəranı.

Ağa Dədə bəylə Göyəş oğlunun uşağı
Bir həmlədə qaçdı qoyuban eli, obanı.

Başın dirəyib dayilərinin yerə zərblər,
Çıxmış göyə biçarələrin ahü fəğanı.

Xeyri başına dəgsin, onun atəşi-şərri
Yandırdı neçə bargəhi-pirü cəvanı.

Yox bir deyən, ey varisi-məcmui-Qarabağ,
Səndə ağalıq qaidəsi, adəti hanı?

Pişək qoyan adını gərəkdir ola pişrov,
Həm gözlüyə bir-bir yorulub dalda qalanı.

Vivəhyi-əmin yaxşı deyib Hacı Ağası,
Türfə bu ki, nadan nə bilir sirri-xudanı.

Xub verdi nəticə kişinin sözləri axır,
Dolmalı imiş ləlü gavahirlə dəhanı.

Çün görməmişik feyz özündən, ya sözündən,
Yarəb, axıdaq çay aşağı böylə ağanı.

Nə meyvəsi, nə sayəsi, çünki quru boşdu,
Bibər ağacı badi-fəna sındısa xoşdu.

VII

Bir kəs yüz ola arifü danavü xirədmənd,
Hər ləhzədə təsnif qıla qafiyeyi-çənd.

Çün dövr qarışdırdı dəxi yadına düşməz,
Ətfalü əyalinin adı, fikr edə hərçənd.

Bir neçə zamandır ki, məni dami-bəlası
Ol zalimi-birəhmin edib Bakidə pabənd.

Seyr eylədim əlminnətü lilləh neçə şəhri,
Qalıbdı həmin Tabasaran, Ağqoşa, Dərbənd.

Heyhat, ədavətlə deyəm bir kəsə böhtan,
Yox məndə kəlambaz süxən, tariyə sövgənd

Bu ... xəlqi-cahan içrə tapılmaz,
Cəhlü həsədü büxldə nə mislü, nə manənd.

Bişübhəvü şək töxmi-dədü divdürür bu,
Haşa ki, doğa növi-bəşərdən belə fərzənd.

Göndərmək ilə iki uşağı, sizi tari,
Qüttaütəriqə bu nə ibrətdi, bu nə pənd?

Xətm oldu bizə, düzdi-vilayət kefə baxsın,
İymirli, Dirağırdı, Safikürdi, Şıxavənd.

Həqqa, əvəzi-çaqqala baqqalı boğarlar,
Doyranbasanın yerinə dağıldı bizim kənd.

Məşhur məsəldir ki: düşər qarə gəzən kəs,
Ev yıxanın evin yıxar, əlbəttə, xudavənd.

Çox zarü təzərrö eləmə, eybdi, Zakir,
Təqdiri-qəzayə gərək adəm ola şakir.

BABA BƏYİN VƏFATINA

Diriğa, getdi bir-bir dərdbilənlər, fərd mən qaldım,
Cahanda xatiri qəmgin, dili pürdəd mən qaldım.

Ənisü mehribanım Mehribanda vasili-rəhmət
Olub, dari-fənadə zarü səhragərd mən qaldım.

Mətai-can xirid etdi rəfiq kərm ikən bazar,
Pozuldu rövnəq, ancaq qaldı ahi-sərd, mən qaldım.

Xəyalət əhli-xaki-kimya tək, napədid oldu,
Tutub rahi-ədəm iskir-təban, kərd mən qaldım,

Görüb dəhrin vəfasın, çəkdilər əl eyşi-aləmdən,
Bu viran mülkdə, səd heyf, tənpərvərt mən qaldım.

Həqiqət mənzilinə yetdilər mərdi-rəhi-aləm,
Mənə bu ar yetməzmi, həmin namərd mən qaldım.

Edər syeri-gülüstani-bəqa ağgünlülər hər yan,
Qara gün içrə gülbərgi-xəzan tək zərd mən qaldım.

Vəzirü şah rüx tutdu piyadə xaneyi-fərzə,
Səməndi-fil ləng oldu, dağıldı nərd, mən qaldım.

Müsibət salının tarixi amma oldu "tarixim"
Köçüb ustad, Zakir bihünər şagird mən qaldım.

MADDEYİ-TARİX

Yatmış idim, gecə röyada məni tutdu köpək,
Ol qədər keçmədi ki, gördüyüm oldu gerçək.
Yıxdı, bərbad elədi çün bizi ol xanə-xərab,
Sali-bidadına fərz oldu mənə nəzm demək.
Nami ... sərbəsər etdim ədad,
Düşdü tarix həmana "tərxan mrof səg".

ÜÇ İLDƏN ƏFZUNDUR İKİ FƏRZƏNDİM

Üç ildən əfzundur iki fərzəndim
Sürülüb qürbətə, dağılıb kəndim.
Piranəsərlikdə həvadən endim,
Necə ola edəm seyri-gülüstan?

BƏRDƏ XƏRABƏLƏRİ

O viladə bir mehriban görmədim,
Gəlmişəm indi də mehriban gəzim;
Seyr eləyim tamam Tərtərbasanı,
Varmı aşiqinə can qıyan gəzim.

Tülək tərlan ovlağıydı bu yerlər,
Bərdə torpağına eyləyim güzər,
Görüm qalıbdırmı Şirindən əsər,
Baxım hər tərəfə nigaran gəzim.

Xosrovi-Pərvizin şənü şövkətin,
Fərhadın ələmü qəmü möhnətin,
Şapurun çəkdiyi nəqşü surətin
Arayıb, axtarıb hər zaman gəzim.

Dolanıb sərasər çarsu bazarı,
Gətirim nəzərə səmti-minarı,
Görsəm xəbər alım bülbüli-zarı,
Necoldu ol gülü gülüstan, gəzim.

Deyim hanı munda gəzən gözəllər?
Teyhuli meşələr, sonalı göllər?
Çayın kənarında tikilən ellər?
Yoxdu heç birindən bir nişan, gəzim.

Ol baş-başa verən sərvi-rənalər,
Hər guşədən gələn sövtü sədalər,
Zərrin piyalələr, meyi-səhbalər,
Gərdişi-badeyi-ərgüvan gəzim.

Adətü qanunun o diyarın mən
Görmüşəm, yazıblar xeyli müstəhsən;
Bayram gecələri ta ki, sübhədən
Neçə həmdəm ilə çirağan gəzim.

Əmirzadələr yeyib naharı,
Yenə çarpışırmı Xənəgə sarı?
Boynu qolladəli səgi-şikarı
Gəmişirmi seydə süvaran, gəzim.

Bundan əzzəlki tək o viranədə,
Küşti tutulurmu asitanədə?
Çillədə əsrəmiş, şütürxanədə
Qızmış dəvələri görüb yan gəzim.

Aşiqə söylürmü qasid ənqərib,
Qom yemə, dilrüba sənədir nəsib?
Zimistan qeydindən çıxan əndəlib,
Axtarırmı təzə aşiyan, gəzim.

Cəvahirfüruşlar satırmı gövhər?
Xublar yaraşığı görürmü zərgər?
Karvansəralərdə tacir, qələndər,
Necə keçir şami-qəriban, gəzim.

Gecə-gündüz daim, banki-cərəsdən
Qulaq tutulurmu sədavü səsdən?
Bakıdan, Dərbənddən, Krım, Çərkəsdən
Gəlirmi mətai-bipayan, gəzim.

Sayeyi-sərvdə məcməi-xuban
Yenə əyləşirmi xoşdilü xəndan?
Yoxsa ki, onlara saqiyi-dövran
İçiribdir mey yerinə qan, gəzim.

Nazəninlər ta tülui-afitab
Oturub gecələr çəkirmi gülab?

Çeşmi-aşiq kimi fəvvarədən ab
Tökülürmü hövzə nümayan, gəzim.

Müzəyyən məhlələr, münəqqəş evlər,
Mütriblər içində həng, hava söylər;
Tövlələrdə kişnəşirmi bədöylər,
Çəkirmi şeyheyi-firavan gəzim.

Hamamlarda məsrəf olan aqçanı,
Pozğun otaqları, uçuq tağçanı,
Yıxılan tağları, viran bağçanı
Xatirimə salıb pərişan gəzim.

Təblü ələm sahibləri xanlara,
Darğanişinlərə, pasibanlara,
Ol səri sövdalı növcavanlara,
Yaxa yırtıb çaki-giriban gəzim.

Qibleyi-hacətə yıxıb özümü,
İmamzadəyə sürtüm üzümü,
Xak olan tənlərə tikib gözümü,
Olam sağlığıma peşiman, gəzim.

Hərgiz bu cahanə yoxdur etibar,
Səfası bir isə, yüz cəfası var.
Baş götürüb gedim diyarbədiyar,
Eyləyim aləmi imtəhan, gəzim.

Bübüli-baçarə verdi xəbəri,
Dedi ki, qalmayıb şənlik əsəri,
Mən Zakirəm, onu görəndən bəri
Gərək cünün olub, biyaban gəzim.

MİRZƏ MEHDİYƏ

Ey Mehdiyi-zaman, şairi-dövran,
Adam olan gərək danışa məqul;
Həcv, hədyan ilə sənə nə layiq
Uyezdni Qazini eyləmək məlul!

Qazi bir molladır təyyubü tahir,
Onunla ədavət eyləmə zahir;
Nəzmi-təbin ola dürri cəvahir,
Xəlq içində qiymətidir qara pul!

Söz deyən gözləyə gərək əndazə,
Nəinki əqlinə gələni yazə;
Haçan mən vermişəm sənə icazə:
Qulağını qırpıb yetənə soxul!

Məgər yaddan çıxıb əyyami-mazi,
Tarxanov zamanı çakəri-qazi
Olmasaydı gəlməyinə ta razi,
Eyləyə bilməzdin hücrəyə düxul.

Kəfş kəndə otururdun baədəb,
Danışa bilməzdin bivəchü səbəb;
Cürət bəhəm eyləyibsən, nə əcəb
Gözləməzsən təriq, saxlamazsan yol?

Etibar eləmə dövri-fələyə,
Əbəs yerə özün salma kələyə;
Quş bağlanıb, deyən, beş gün tüləyə,
Pərvaz eyləməsin turac, qırqavul!

Gədə, saf azıbdır sənin əməlin,
Axırındı, bilməm, yoxsa əvvəlin;
Talıb kimi hərdəm tutanda dəlin
Danışırsan hədyan, söylürsən füzul.

Baxma İbrahimə, olma sərəri,
Onun heç özündən yoxdu xəbəri;
Qazidən kənara durandan bəri
Qaçar ondan təmam əyalü oğul.

Önqəribdir bu gün, sabah gəlir xan,
Qaçma bir tərəfə, ... var dayan,
Tövsəni-nəzminin başın çək, oğlan,
Enişə-yoxuşa çapma bi-üsul!

Mən gəzmişəm Gəncə, Şəki, Şirvanı,
Bizim tək sirr açan cəmaət hanı?
Bəd əməldə görsə biri mollanı,
Üstünə örtəllər ellik ilə çul.

Qaxarsan başına gahi çırağı,
Gah deyirsən işə tutar qonağı;
Ey uşaq, bilməzsən sən bu sayağı,
Zina deyil əgər övrət olsa dul.

Nə çəkirsən onu arana, dağa,
Gündə bir yazırsan hədə, qadağa;
Tərəfgirlik eləməyib mütləqa,
Rüşvət almayıbdır ömründə bir yol.

Müridi-xas idin Qaziyə daim,
Hekayətin həmvar, özün mülayim;
Üsuli təriqin tutmuşdun qayim,
Sənə kim toxundu, elədin nükul?

Nə desən yaraşır Əbdülə, mənə,
Biz də əvəzini yazırıq sənə,
Nəhayət küfrdür söz demək onə,
Bir iş tut ki, tarı eyləsin qəbul.

Müştəridir gövtüguyə həmişə,
Töri-təriqəti salmağa işə.
Mu qədəri edən deyil əndişə,
Gəlsə üləmayi-Misrü İstambul.

Bir stəkan çay nuş edər nəharə,
İki çəngə çilov axşam iftarə;
Əlhəmdülillahə deyil, biçarə
Özgə mollalar tək təmmaü əkul.

Fındığa yetirib gərçi tiryakı,
Yenə sərindədir fəhmü idrakı;
Hər yetən novçədən eyləməz baki,
Pişləngə salacaq səni, hazır ol!

Sarcallını qoyma eyləsin fərar,
Yüz illik əmlakı tökülüb qalar;
Gedən tək olara qızılbaş yazar
On tümən məvacib, oda laviüsul.

Boran çoxalanda gəzər yalavac,
Kisələri xali, əyalları ac;
Kürəyə kəsilib sən görən ağac,
Qalmayıb kimsədə bir kəndi-tüyul.

Məbadə olalar qızılbaşa ram,
Yığılıb gəlsinlər Qələyə təmam.
O dövlətdən əl çəkibdir xasü am,
Necə çi, təbibdən mərdümi-məslul.

Hər kim ki, istəyə əbədi çörək,
Dövləti-aliyə yapışsın gərək;
Canü dildən qulluq eylə bir əndək,
Hörmətə, izzətə, nemətə cumul.

Büxlü həsəd olub bu xəlqə adət,
Həddən aşıb aravurmaq, şərarət;
Bilirəm, bir səfhə etməz kifayət,
Nə lazımdı dəxi verəm nəzmə tul.

Bilirəm işini mən o viranın,
Mədənidir təqəllübün, yalanın;
Bəyi, xanı, şahı mülki-İranın
Çoxdan eyləyiblər ədldən üdul.

Saluban gərdənə tövqi-iradət,
Üz tutsun dərgahə bivəhmü vəhşət;
Cümlə qəmin bədtəridir şəmatət,
Vardır bu babdə hədisi-mədlul.

Qorxuram açtla bir özgə kələk,
Gördünmü ki, nə saç qaldı nə ələk;
Az çəkər, sizlərə, Xındırıstan tək,
Buyrula hər yandan çapğun, çapavul.

Nazimi – Ümurati-məmalik cənab general-leytenant knyaz Bebutov hüzuruna

Ərizə

Qarabağ vilayətinin Cavanşir uçastokunda Xındırıstan kəndinin sakini Qasım bəy Əli bəy oğlu tərəfindən

Belə ki, mən bəyzadələrdən və əsl ocaq sahiblərindən varam. Özüm də 65 sinni təmam eyləmişəm. Hənuz məndən xilafi-zabitə iş baş verməyib və dəftərxanalarda mənim adıma bihesab mərqum deyil. Nəhayət şimdi bir il təmam olur ki, Şuşa şəhərinin Uyezdni naçalniki knyaz Tarxan Mourovov öz ixtiyaratının zoru ilə və polkovnik Cəfərqulu ağanın təhriki ilə bicürmü günah və bitəhqiqi məratib məni və mənə təəllüq Xındırıstan kəndini təxminən yeddi yüz atlı ilə ki, o cümlədən Cəfərqulu ağa olsun, bir növ taxtü qarət ediblər ki, tamam ac və möhtac qalmışıq və o zülmlər ki, bizlərin başına gətirib əvvəldən axıra heç bir kəsin başına gəlməyib. Əvvəla, mənə xəlayiq içində rubəru föhşlər deməklə mənim nəcabətimi bilmərrə itirib; ikinci, mənim və övladımın on doqquz baş əyalımızı həddən ziyadə bihörmətlik ilə Şuşa şəhərinə zəval aparıb, hənuz o cümlədən mənim oğlum Nəcəfqulu bəyi və qardaşım oğlu İskəndər bəyi bicürmü günah qanunsuz bu ərzi-müddətdə məhbus etmək ilə bizləri həddən zyadə

borclu edib. Ona binaən mən iki tuğra ərizə Şamaxı qubernasına və bir tuğra ərizə dəxi canişin həzrətlərinə dörd ay üç həftə olur ki, pişnihad etmişəm. Hənuz mənə rizaməndlik hasil olmayıb. Şimdi sizin ədalət və mürüvvətinizə ümmidvar olub dördümcü ərizədir ki, pişnihad edib istida edirəm ki, Allah-taala xatirinə bir nəfər özünüz etibar edən çinovnik təyin buyurasız ki, naçalnik-vilayətin ixtiyaratı və tərəfgirliyi mənzur olmayıb Qarabağ vilayətinin əraminə və islamiyyə xəlqindən and ilə təhqiqi-məratib olub həqq olan tərəfə rizalıq mərhəmət oluna. İnsaf, mürüvvətdən uzaqdır ki, bitəhqiqi-məratib və bicürmü günah həmin iki nəfər əşxasın zoru ilə ki, cənab knyaz və cənab Cəfərqulu ağa olsunlar, bir ocaqi-qədim xərab və bir silsilə bədbəxt və bir kənd viran olsun.

Bavücudi in ki Xındırıstan kəndi kimi Qarabağ vilayətində kəsbkar, füqəra kənd yoxdur və mənim kimi fəraqət və öz halı ilə dolanan adam yoxdur. Mənim bu ərzimin doğruluğunu bundan bilmək olur, sabiq dəftərxanalarda mənim və mənə təəllüq rüəyalərin həqqində bir xilafi-zabitə iş mərqum deyil və bilfeil hərgah təhqiqi-məratib oluna əhli-vilayətdən bir nəfər şikayətmənd adam tapılmaz. Məgər ki, şol iki nəfər əşxasın ixtiyaratı ilə və tərəfgirliyi ilə bir para adamlar böhtan demiş olalar. Bu zülmlər ki, bizlərin başına gəlib əlaniyyə gərək Cəfərqulu ağaya və onun qardaşlarına təəllüq Şükürağalı obasının xəlqinə olaydı. Belə, mən doğruluq ilə şol obanın əhlinin şol həramzadə Behbud ilə əlaqələrin və çörək verib mühafizət etməyin iyun ayının 24-də və iyul ayının əvvəlində Şamaxı qubernasına pişnihad etdigim ərizədə müfəssəl qeyd etmişəm. Ümmidvaram şol iki nəfər əşxaslar öz zor qüvvələrinə xatircəm olub mən dövləti-aliyyənin ədalət və mürüvvətinə və zakonuna xatircəm olmağıma görə öz təmənnamdan məyus olmuyam. Padişahi-aləmpənahın biriya və qədimi-daim olan zakonu ilə və ədaləti ilə rəftar oluna.

Təhrirün: fi 24 mehr oktobr 1850